**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DİLLƏR UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**KƏNAN MEHDİ oğlu BABAYEV**

# ABŞ-DA AZƏRBAYCAN VƏ ERMƏNİSTANIN LOBBİÇİLİK FƏALİYYƏTİNİN MÜQAYİSƏLİ TƏHLİLİ

**Ölkəşunaslıq (ABŞ üzrə) HSM-0602211**

**Magistr elmi dərəcəsi almaq üçün təqdim edilmiş**

**DİSSERTASİYA**

**Elmi rəhbər: dos Kifayət Ağayeva**

**BAKI– 2022**

## MÜNDƏRİCAT

**GİRİŞ...............................................................................................................................3**

**I FƏSİL Lobbiçilik fəaliyyətinin ABŞ siyasətində rolu.............................................8**

1.1. Birləşmiş Ştatlarda lobbiçiliyin qanuni və hüquqi əsasları ..............................................................................................................................................8

1.2. ABŞ-da erməni diasporu və lobbisinin yaranması tarixi,məqsəd və vəzifələri ............................................................................................................................................28

1.3. ABŞ-da Azərbaycan diasporu və lobbisinin yaranması tarixi, məqsəd və vəzifələri.........................................................................................................................35

**II FƏSİL BİRLƏŞMİŞ ŞTATLARDA AZƏRBAYCAN VƏ ERMƏNİ LOBBİLƏRİNİN FƏALİYYƏTİ.....................................................................43**

2.1. ABŞ Konqresində "Azadlığın müdafiə aktı" və ona 907-ci əlavənin (Kerri düzəlişi) qəbulu ilə bağlı lobbi fəaliyyəti...................................................................................43

2.2. Birləşmiş Ştatların Cənubi Qafqaz siyasətinə lobbi qruplarının təsiri (1994-2020-ci illər)..................................................................................................................................54

2.3. 44 günlük Vətən müharibəsi və Azərbaycanın ABŞ-da lobbi fəaliyyəti: problemlər və perspektivlər .............................................................................................................58

**NƏTİCƏ.............................................................................................................................66**

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI ....................................................68**

# GİRİŞ

**Mövzunun aktuallığı.** Bildiyimiz kimi hər bir tarixi dövrlərdə ayrı-ayrı etnik qruplar mövcud olmuşlar. Öz vətənlərindən didərgin düşmüş etnik qrupların əsas xarakterik xüsusiyyət odur ki, onlar öz huquq və azadlıqları uğrunda daim mübarizə aparmalıdırlar.Belə ki, ayrı-ayrı ölkələrdə yaşayan xalqların hüquq və azadlıqlarını müdafiə etmək məqsədi ilə diaspor quruculuğundan istifadə edilir. Buna lobbiçilik fəaliyyəti də deyə bilərik. Lobbiçilik fəaliyyətinin hüquq mexanizmlərinin inkişaf etməsi ABŞ-da möcvud olmuşdur. Müasir dünya üçün örnək lobbi modelini məhz ABŞ yaradıb desək, yanılmarıq. Müasir ABŞ ictimai-siyasi həyatı, siyasətşünaslığı novatorluğu və innovasiyaları ilə digər dünya dövlətlərini geridə qoymaqdadır. Məhz lobbi institutunun burada bərqərar olaraq siyasətşünaslıqda təzahür tapması onun iqtisadi-siyasi gücü ilə bağlıdır və digər xarici dövlətlər tez-tez ABŞ-ın dəstək və təcrübəsinə ehtiyac duymaqdadırlar. Ümumiyyətlə, lobbi institutu ABŞ siyasi sisteminin mahiyyətindən irəli gəlir və ABŞ plüralist demokratiyasının mühüm təzahürü hesab olunur. Əslində Amerikanın əsas dəyərlərindən olan individualizm və şəxsı nailiyyət kimi prixoloji dəyərlər lobbi fəaliyyətinin əsasında durur.

Bundan başqa tədqiqat işində erməni və Azərbaycan lobbiçilik fəaliyyətləri haqqında da geniş məlumat verilir. Tarixi mənbələr və sənədlərdə də öz əksini tapır ki, ermənilər tarix boyu əzilmiş və daim başqa böyük dövlətlər tərəfindən müəyyən məqsədləri həyata keçirən xalq kimi xarakterizə olunmuşdur. Erməni lobbiçilik fəaliyyətinin əsas məqsədi 2020-ci ilə qədər Dağlıq Qarabağ ərazisinin onlara məxsus olmasını və “Qondarma erməni soyqırımını” dünya ictimaiyyətinə çatdırmaqdan ibarət idi. Lakin Vətən müharibəsi bütün bu xülyaların üstündən xətt çəkdir. ABŞ-da erməni lobbisinin fəaliyyəti yalnız həqiqətə uyğun olmayan məlumatların dünya miqyasında tanınmasına nail olmaqdan ibarətdir, lakin onlar bu məqsədlərinə nə qədər qəbul etməsi acı olsa da, tarixə nəzər saldıqca zaman- zaman bunu bacardıqlarının şahidi oluruq.

Tarixi təcrübələrdən belə nəticəyə gəlmək olar ki, erməni lobbisi daha güclü əsaslara sahib olub və diaspor fəaliyyəti geniş miqyasda fəaliyyət göstərib.

Bu gün öz inkişaf səviyyəsinə görə müstəqil Azərbaycan Respublikasında da lobbiçilik fəaliyyəti əsas yerlərdən biri tutur. Ancaq tarixi inkişaf prosesini nəzərə alaraq bu nəticəyə gəlmək mümkündür ki, Azərbaycan lobbisini Çin, yəhudi, irland və s digər lobbilərlə eyni səviyyədə tutmaq mümkün deyildir. Çünki adı sadalanan digər lobbilər tarixi inkişaf prosesi keçmişdir və aid olduqları ölkənin qanunverici və icraedici hakimiyyətinin xüsusiyyətlərini özündə birləşdirmişdir.

Artıq Azərbaycan diasporu özünün inkişaf dövrünü yaşayır. 2001-ci il, noyabr ayında Bakıda ümummilli lider Heydər Əliyevin iştirakı ilə keçirilmiş Ümumdünya azərbaycanlıların qurultayı bu sahədə görülmüş ən önəmli addımlardan biri idi. Qurultay zaman Heydər Əliyevin çıxışın da dünya ölkələrinə səpələnmiş soydaşlarımızın hüquqlarının müdafiəsinin, onların hər zaman həmrəy olmasını və lazım olduqda birləşmək cəhdlərinin vacibliyini xüsusi ilə qeyd etmişdir. Xaricdə yaşayan azərbaycanlıların həmrəyliyi Azərbaycan Respublikasının müstəqilliyinin ən əsas zəmini hesab olunur, bu onunla bağlı amildir ki, lazım olduüda bütün həqiqətləri dünya ölkələrinə çatdırmaq imkanına şərait yaradır.

**Tədqiqat mövzusunun öyrənilmə dərəcəsi**. Tədqiqat prosesində mövzu ilə bağlı mövcud ədəbiyyat bazasından, nəşr olunmuş rəsmi sənədlərdən geniş istifadə olunmuşdur. Dissertasiya işinin yazılmasında ingilis və rus dillərində olan ədəbiyyat bazasından, jurnal məqalələrindən və internet resurslarından istifadə edilmişdir. ABŞ Lobbizim inkişafının əsas xüsusiyyətləri və eyni zamanda onun hüquqi tənzimlənməsinin əsas mexanizmlərinin öyrənilməsi tədqiqat işində daim diqqət mərkəzində olmuşdur. Diasporların fəaliyyətinin hüquqi tənzimlənməsi və Azərbacaycan, erməni diasporlarının araşdırılması və tarixi köklərinin öyrənilməsi öz əksini tapmışdır. Azərbaycan müəlliflərindən olan Vüqar Əliyevin ABŞ-da lobbiçiliyin hüquqi bazasının öyrənilməsi və onun əsas hüquqi mexanizmlərinin tədqiq edilməsi [17] Zaur Əliyevin [18] diasporların fəaliyyətinin tədqiq edilməsi və eyni zamanda 907-ci

düzəlişin ətraflı şəkildə araşdırılması Azərbaycan dilində istifadə edilmiş ədəbiyyatlar sırasındadır. İngilis tədqiqatçılarından Justin Me. Carthy [32] ermənilərin lobbiçilik fəalliyyətinin tədqiq edilməsini və onların Türkiyə ilə əlaqələrin araşdırılmasını və Christopher J. Dcrriıg [35] lobbiçilik fəaliyyətinin hüquqi bazasının öyrənilməsi və ABŞ-da ayrı-ayrı diasporlar arasındakı əlaqəni tədqiq etmişdir.

İstifadə olunmuş materiallar arasında dövri mətbuat və İnternet resursları da əhəmiyyətli yer tutur.

Qeyd olunan materiallardan istifadə bir tərəfdən problemin hansı səviyyədə öyrənildiyini aşkara çıxarmağa, digər tərəfdən tədqiqatı tarixi və mövcud siyasi reallıqlar nəzər alınmaqla sistemli şəkildə aparmağa kömək etmişdir.

**Tədqiqat işinin məqsədi**. Tədqiqat işinin əsas məqsədi Azərbaycan və erməni lobbiçiliyinin əsas xüsusiyyətlərinin araşdırılmasından və ABŞ-ın Cənubi Qafqaz siyasətinin formalaşmasında hər iki lobbinin rolunun müəyyənləşdirilməsindən öyrənilməsindən ibarətdir.

**Tədqiqat işinin vəzifələri**. Müəyyən olunmuş məqsədə çatmaq üçün aşağıdakı vəzifələri yerinə yetirmək nəzərdə tutulur:

- Lobbiçilik anlayışının mahiyyətinin izah edilməsi;

- ABŞ-da lobbiçiliyin əsas xüsusiyyətlərinin araşdırılması və lobbiçiliyin növlərinin öyrənilməsi;

- Azərbaycanda lobbiçilik fəaliyyətinin yaranması və Diasporun fəaliyyətinin əsaslandırılması;

- Erməni lobbzimin tarixi inkişaf xüsusiyyətlərinin araşdırılması və onun ABŞ-da fəaliyyətinin əsas xüsusiyyətlərinin öyrənilməsi;

- 44 Günlük Vətən müharibəsinin nəticələrinin təhlil edilməsi və Azərbaycan lobbiçiliyinin əsas fəaliyyət sferasının tədqiq edilməsi.

**Tədqiqatın metodoloji əsasları**. Magistr dissertasiyasının yerinə yetirilməsi zamanı müxtəlif metodlardan istifadə olunmuşdur. İş prosesində qarşıya qoyulan məqsədlərə çatmaq, ABŞ-da lobbiçiliyin inkişafının və hüquqi tənzimləməsinin

xarakterik xüsusiyyətlərini təhlil etmək, problemlərin mahiyyətini açmaq, ümumiləşdirmələr aparmaq prosesində müqayisəli təhlil, sintez, deduksiya və induksiya kimi metodlar tətbiq olunmuşdur.

**Dissertasiyanın elmi yeniliyi**. Məlum olduğu kimi, lobbiçilik və eyni zamanda ayrı-ayrı diasporların fəaliyyətinin öyrənilməsinə dair müxtəlif səpkili əsərlər yazılmışdır. Baxmayaraq ki, problem əfrafında ədəbiyyat siyahısı mövcuddur, ABŞ-da olan ayrı-ayrı diasporaların fəaliyyəti daha dərindən və əhatəli şəkildə təhlil edilmiş, əsas anlayışlar və xüsusi yanaşmalar tətqiqat işinə daxil edilmişdir.Azərbaycan diaspor fəaliyyətinin tarixi inkişaf mərhələlərinin ətraflı şəkildə təhlil edilməsi, Vətən müharibəsində əldə olunmuş nailliyyətlərin ətraflı şəkildə öyrənilməsi və onun təhlil olunması, ABŞ-ın Cənubi Qafqazda gedən proseslərə və hadisələrə yanaşmasının təhlil edilməsi bu tədqiqat işinin nəbzini təşkil etmişdir. Eyni zamanda mövzunun azərbaycanlı müəllif tərəfindən neytral şəkildə qiymətləndirilməsini də tədqiqatın elmi yenilikləri sırasına daxil etmək olar.

**Tədqiqat işinin elmi və praktiki əhəmiyyəti**. Dissertasiyanın özündə ehtiva etdiyi məlumatlar, alınan nəticələr və aparılmış ümumiləşdirmələr lobbizmin tarixi köklərinin araşdırlmasında və onun ABŞ-da əsas formalarının öyrənilməsi ilə bağlı məsələlərin geniş şəkildə təhlil edilməsi baxımından olduqca əhəmiyyətlidir.

İş prosesində əldə olunmuş nəticələr öyrənilən problemlə bağlı müəyyən proqnozların verilməsinə və qiymətləndirmələrin aparılmasına yardım edə bilər. Bundan başqa, dissertasiyanın materialları əsasında Azərbaycanın ABŞ-da fəaliyyət göstərən lobbi formaları haqqında məlumat, Vətən müharibəsindən sonra Azərbaycan lobbiçiliyinin əldə etdiyi uğurların geniş şəkildə tədqiq edilməsi və araşdırılması baxımından tədqiqat işinin böyük əhəmiyyəti vardır.

Tədqiqat işində yer almış materiallar problemlə bağlı dərsliklərin, metodik vəsaitlərin, tədris proqramlarının, mühazirə mətnlərinin hazırlanmasında da əhəmiyyətli ola bilər

**Tədqiqat işinin aprobasiyası**. Magistrlik dissertasiyasının əsas müddəaları müəllifin dərc olunmuş məqalə və tezislərində öz əksini tapmışdır.

**Dissertasiyanın strukturu**. Magistr dissertasiyası giriş, iki fəsil, altı paraqraf, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısı" dan ibarətdir.

# I FƏSİL. Lobbiçilik fəaliyyətinin ABŞ siyasətində rolu

## 1.1. Birləşmiş Ştatlarda lobbiçiliyin qanuni və hüquqi əsasları

XX əsrin sonlarından etibarən siyasi leksikonda yeni termin lobbiçilik anlayışından geniş şəkildə istifadə edilməyə başlanıldı. Ümumiyyətlə lobbiçilik və diaspora anlayışları bir-biri ilə qarşılıqlı əlaqədə olan iki termin kimi nəzərdə tutulur, bəzi alimlər onların hər ikisin oxşar mənalar kəsb edən termin kimi, bəzi alimlər isə bir-birindən uzaq anlayışlar kimi nəzərdən keçirir. Amma ümumilikdə nəzərdən keçirdikdə hər iki anlayış bir-birinə oxşar mənalar ifadə etmir. Belə ki, diaspor anlayışı sosial-mədəni sahələrdə görülə biləcək tədbirlərin cəmin ifadə edirsə, lobbiçilik isə özündə siyasi və iqtisadi sahələrdə görülə biləcəklər tədbirlər məcmuusunu ifadə edir. Diaspor dedikdə biz öz etnik torpaqlarından, yəni öz məskunlaşmış ərazilərindən kənarda yaşayan, lakin öz etnik kimliyini, yəni milli mənsubiyyətini unutmayan insanların çoxluğunu ifadə edir. Diaspor sözünü ümumi formada gözdən keçirsək, onu deyə bilərik ki, öz torpaqlarından kənarda yaşayan, lakin öz milli mənsubiyyətini qoruyub saxlayan insan toplusu diaspora hesab olunur. Diaspora dedikdə milli-məişətə, adət-ənənələrə, mədəniyyətə və dilə, milli şüura malik olan və onu qoruyub, inkişaf və təbliğ etdirən etnik cəmiyyət nəzərdə tutulur.

Lobbi terminin meydana gəlməsinin onun tarixi köklərinə nəzər saldıqda 1553-cü ilə təsadüf etdiyini görə bilərik. Bu terminin vətəni İngiltərə hesab olunur. Müasir dövrdə lobbiçilik fəaliyyətindən ən çox istifadə oldunduğu ölkələrdən birincisinin ABŞ olduğunu görə bilərik. ABŞ Konstitusiyasi qəbul edildikdən sonra ona edilmiş ilk düzəlişdə lobbiçilik fəaliyyətinin ilkin zəmini hazırlanmış, onun həyata keçirilməsi üçün lazım olan hüquqi baza hazırlanmışdır (3, səh. 60). 1946-cı ildə “Federal Lobbi fəaliyyəti” haqqında qanun qəbul olunmuşdur ki, orda lobbiçi terminınə yer verilmişdir. Qanunda ABŞ Konqresinin (başqa sözlə parlamentin) qəbul etdiyi qərarlara zidd gedən və qəbul edilməkdə olan qərarlara hər hasnı bir formada təsir etmək istəyən şəxslər lobbiçi kimi nəzərdə tutulurdu.

Qeyd: ABŞ lobbiçiliyinin özünəməxsus xüsusiyyətlərindən biri də lobbiçiliyin ilk dəfə məhz ABŞ-da leqallaşdırılmasıdır. Bu addımı atmaqda isə məqsəd lobbiçilik fəaliyyətlərini məhdudlaşdırmaq, çərçivələmək deyil, nəzarət edilə biləcək lobbiçilik modeli yaratmaq idi.

XXI əsr ABŞ siyasəti, ictimai-siyasi fəaliyyəti, innovasiyalara və digər sahələrdə göstərdiyi fəaliyyətinə görə başqa ölkələri geridə qoymaqda davam edir. Təsadüfi deyil ki, hal-hazırda dünya ölkələri içərisində yeganə hegemon ölkə ABŞ-dır. Buna görə də lobbiçilik institutunun daha geniş şəkildə ABŞ-da formalaşması onun siyasi və iqtisadi sahələrdə əldə etdiyi nailiyyətlərlə bağlıdır, digər ölkələr ABŞ siyasətindən bəhrələnməkdədir. ABŞ da plüralist demokratiya modelindən istifadə olunması məhz lobbiçilik fəaliyyətinin inkişafına təkan verir. ABŞ-da lobbiçilik modelinin qurucularından olan C.Medison lobbizim fəlsəfi baçlanğıcının əsası hesab olunan "tarazlaşdırma və çəkindirmə" kursunun başlanğını qoydu. C.Medisonun adı çəkilən konsepsiyasının əsas qayəsi ondan ibarətdir ki, plüralist cəmiyyətdə dağıdıcı fəaliyyət göstərən ayrı-ayrı qrupların fəaliyyətini dayandırlmasını, neytrallaşdırılmasını nəzərdə tutur.

ABŞ dövlətinin idarə olunması prinsiplərinə nəzər saldıqda və eyni zamanda lobbiçilik anlayışının tarixini araşdırdıqda terminin hərfi mənada dövlət idarəetməsinə maneə törədən insan qrupları formasında nəzərdən keçirmək mümkündür. Bu fəalliyət formasını dövlət idarə etməsinə təsir göstərmək məqsədiləinsanların birlikdə fəaliyyəti nəzərdə tutulmuşdur. Peşəkar lobbistin malik olmalı olduğu əsas keyfiyyətlər gözəgörünmədən işləməyi bacarmaq, həmçinin siyasi partiyalara münasibətdə bitərəf mövqe nümayiş etdirməkdir. Lobbizm, geniş mənada hakimiyyət orqanlarında qeyri-formal əlaqələrdən istifadə edilməklə, hakimiyyət orqanlarının bu və ya digər qərarlarının qəbul edilməsinə təsir göstərən maraqlı qrupların fəaliyyətidir.

ABŞ siyasi sistemində güclü mövqeyə malik olan lobbiçilərin tez-tez istifadə etdiyi qərar qəbuletmə metodu, cəmiyyətə təsir etmək və davamlı siyasi proseslərin

uzunmüddətli olması baxımından vacibdir. Bütün mənbələr qərar qəbuletmə anlayışının ilk dəfə ABŞ Müdafiə Nazirliyinin tərkibindəki bölmələr tərəfindən istifadə edildiyini göstərir.

Qərar qəbuletmə (dərk etmə, ağıl yönetimi, qavrayış) anlayışı koqnitiv psixologiyanın əsas mövzularından biri olmasına baxmayaraq, müasir dövrdə ABŞ-ın siyasi qərarlarının ölkədə və beynəlxalq miqyasda qəbul edilməsi üçün istifadə olunan bir metod kimi təqdim olunur. ABŞ Müdafiə Nazirliyi tərifinə görə xaricilərin, o cümlədən bütün səviyyələrdə kəşfiyyat bölmələri və rəhbərlərinin fəaliyyət göstərmələrini, rəsmi addımlar atmalarını təmin etmək üçün qəbuletməidarəçiliyiseçilmiş məlumat axınlarını, konkret sənədləri istiqamətləndirmək və ya rədd etməklə, kütlələrin hisslərinə, düşüncə sistemlərinə təsir göstərməyə çalışan tədbirlər sistemidir. Qəbuletmə müxtəlif yollardan istifadə edərək, həqiqəti əks etdirmək, əməliyyat təhlükəsizliyini təmin etmək, reallığı gizlətmək və təhrif etmək, psixoloji əməliyyatları idarə etmək kimi amillərdən ibarətdir.

ABŞ siyasi sistemində isə lobbi fəaliyyəti birbaşa və dolayı formada iki qrupa bölünməklə, qərarvermə prosesində birbaşa olaraq siyasi təşkilatın nümayəndəsi ilə hakimiyyət səlahiyyətlərinə malik şəxs arasında federal qanunla nəzərdə tutulmuş informasiya mübadiləsinin həyata keçirilməsidir (2, səh 65).

Birbaşa lobbiçilik qanunu qəbul edənlərin və onu icra edənlərin birbaşa hədəf alındığı, onlarla birbaşa ünsiyyət qurulduğu və ədəbiyyatda daxili lobbiçilik olaraq da adlandırılan lobbi üsuludur. Bu peşəkar lobbiçilər tərəfindən həyata keçirilməklə, üz-üzə əlaqə, görüşlər, yeməklər, qəbullar kimi sosial, rəsmi və qeyri-rəsmi fəaliyyət sahəsidir. Birbaşa lobbiçilik "düzgün" qərarı qəbul etmək üçün təzyiq qrupunun dövlət orqanlarına birbaşa təsirini nəzərdə tutur, siyasi təbliğat və təşviqat, məktub, internet, yazılı və vizual media, nümayişlər və mitinqlərdə olduğu kimi bazasını aktivləşdirərək icraedici və qanunverici orqana təsir göstərmək üçün bir səydir. Bu metodun əsas məqsədi qanun layihəsinin hazırlanmasının planlaşdırma mərhələsində komitələr və ya alt komitələr səviyyəsində ünsiyyət qurmaq, öz marağını düzgün zamanda çatdırmaqdır. Bu mərhələdə, lobbiçilər qanunun hazırlanması ilə əlaqədar texniki məsələlər haqqında

lazım olan məlumatları məclis üzvlərindən toplayırlar. Lobbi fəaliyyətini həyata keçirmək üçün kifayət qədər sayda işçi və maliyyə resursları olmadıqda, birbaşa lobbiçilik üstünlük təşkil edir və seçkilərdə təsirin az olduğu hallarda tətbiq edilir.

Birbaşa lobbi fəaliyyəti zamanı bu fəaliyyəti həyata keçirən şəxs və ya maraq qrupu qərar qəbul edənlərin qəbul edilməsi planlaşdırılan qanun layihələrinin dəyişdirilməsinə istiqamətlənmiş fəaliyyət göstərirlər. Məsələn, Türkiyənin hər il 24 apreldə "qondarma erməni" soyqırımı mövzusunda ABŞ siyasi sistemində hər hansı bir qərarın verilməməsi, hər-hansı mövqe və ya "genosid" sözünün işlədilməməsi istiqamətində etdiyi fəaliyyət birbaşa lobbiçiliyə nümunə kimi göstərilə bilər.

Birbaşa lobbiçiliyin ən vacib cəhəti üzbə-üz təmasın təkcə ofisdə deyil, daha geniş məkanlarda olmasıdır. Sosial lobbiçilik hesab edilə bilən bu təşəbbüs lobbiçilərin özlərini ifadə etmələri və özünü tanıtması üçün başqa bir seçimidir. Bu istiqamətli fəaliyyətlərə lobbiçilər tərəfindən təşkil edilən qəbullar, seminarlar, kokteyllər və digər bu kimi tədbirlərdə qərar qəbul edənlərlə qarşılıqlı əlaqələr aiddir. Bu qarşılıqlı fəaliyyətlər qərar verənlərin mənsub olduqları sosial klublara ianələr vermək, müxtəlif xeyriyyəçilik fəaliyyətlərində fəal iştirak etmək, vəsait toplamaq üçün ictimai tədbirlər təşkil etmək və ya daha uzun müddətli münasibətləri təmin etmək üçün əlaqələr yaratmaqla davam edir.

Burada ən vacib məqamlardan biri, əlbəttə ki, lobbiçilərin seçici elektoratı ilə bağlı siyasətçilərlə əlaqə qurması, seçicilərə təsir edəcək mesajlar verməsi, seçicilərin nüfuzlu nümayəndələrindən yararlanmasıdır. Lobbiçilərin bu imkanlara malik olması siyasətçiləri istədikləri istiqamətə həvəsləndirmək baxımından böyük əhəmiyyət daşıyır.

Dolayı lobbiçilik daha uzunmüddətli və daha strateji addım kimi qiymətləndirilə bilər. Dolayı lobbiçilik təşkilatlar və ya ixtisaslaşmış şirkətlər vasitəsilə gerçəkləşdirilən lobbi fəaliyyəti üsuludur. Lobbiçilər ümumiyyətlə birbaşa lobbiçilikdən nəticə ala bilmədikdə dolayı lobbiçiliyə müraciət edirlər. Dolayı lobbi "aktları" dolayı yollarla, o cümlədən, təşviqat işini təşkil etməklə (mitinq, nümayiş, problemin mediada müzakirəsi və s.), aidiyyəti orqanlara təzyiq göstərməküçün ictimai rəyi formalaşdırmaqla, qərar qəbuletmə və insanlara təsir göstərmək çərçivəsində kütlələri səfərbər etməklə və digər

formalarda həyata keçirlir. Kütlələri səfərbər etmək səyləri yazılı ünsiyyətdən başlayır, bu zaman məqsəd siyasətçilərə seçici bazasının müəyyən bir məsələ və ya problemlə yaxından maraqlandığını göstərməkdir. Buna “seçici bağlantısı” da deyilir. İnkişaf etməkdə olan əsrdə elektron resursların verdiyi imkanlar çərçivəsində bu cür lobbiçilk və siyasi kampaniyalarının imkanları xeyli artmışdır. ABŞ-da göründüyü kimi potensial seçici bazasının izlənildiyi hər mühitdə və platformada əlaqələrin qurulması tələb olunur. Bu mərkəzlərə həmkarlar ittifaqları, kilsələr, şirkətin idarə heyəti  və elektron media çərçivəsində internet saytları və s. aid edilir.

1995-ci ildə ABŞ konqresi lobbiçilik fəaliyyəti barədə qanunun təkmilləşmiş formasını qəbul etdi. Bu qanuna əsasən lobbistlər Birləşmiş Ştatların Konqresi tərəfindən hər hansı qanunvericilik aktının qəbuluna və rədd edilməsinə təsir göstərmək məqsədilə fəaliyyətə başlamazdan öncə Nümayəndələr palatası klerkinin və Senatın katibinin yanında qeydiyyatdan keçdikdən sonra and içməli və yazılı ərizə təqdim etməlidir. ABŞ-da lobbistlərin fəaliyyətini tənzimləyən qanunlar içərisindən, 1938-ci il “Xarici Nümayəndələrin qeydiyyatı haqqında”, 1946 və 1995-ci illərdə “Lobbiçiliyin Açıq Xarakteri haqqında” sənədlərin adlarını sadalamaq olar. Bu gün Amerika siyasi sisteminin mühüm qolu olan lobbiçilik fəaliyyəti Qanunverici-İcraedici- Məhkəmə hakimiyyətilə yanaşı digər sahələrdə müxtəlif formalarda aparılır. İri transmilli korporasiyalar, keçmiş və hazırki konqresmenlər, bankirlər, hüquqşünaslar, siyasi-ictimai xadimlər, qeyri-hökumət təşkilatları, fermerlər, iş adamları, etnik diasporlar və digər peşə sahibləri imkanları çərçivəsində lobbi fəaliyyəti ilə məşğul olurlar.

İndi isə xarici lobbizmin nə olması haqda məlumatlarla tanış olaq. Xarici lobbizm kifayət qədər ənənəvi təzahürdür. Bütün dövlətlər xaricdə onlara lazım olan siyasəti aparmaqda yardım edəcək qeyri-diplomatik təsir mərkəzləri yaratmağa çalışıb və hazırda da çalışmaqdadır. Xarici lobbizimin mövcud olan formalarından biridə dövlətin vəzifəli insanlarının ayrı-ayrı dövlətlər tərəfindən maliyyələşməsi kimi xarakterizə edilmişdir. Çox uzun zaman ərzində ABŞ-da “xarici lobbizm” mənası altında ən əvvəl

“müəyyən xarici siyasi maraqların dəstəklənməsi” anlaşılırdı. ABŞ-da 1938-ci ildə qəbul edilmiş qanun layihəsi öz xarakterinə və prinsiplərinə görə xarici dövlətlər tərəfindən maliyyə yardımı alan insanların fəaliyyətinə istiqamətlənmişdir. Bu qanun xarici agentlərin üzərinə qeydiyyatdan keçmək və fəaliyyət barədə hesabat vermək öhtəliyi qoyur. XX əsrin 60-ci illərini nəzərdən keçirdikdə belə nəticəyə gəlmək olur ki, həmən illərdə Tayvan və İsrail ən güclü lobbiçiliyə sahib olan ölkələdən idi. İsrail lobbisi güclü elektorat qüvvəsi təşkil edən Amerika yəhudilərini də öz fəaliyyətinə cəlb etməsi sayəsində elə indi də öz keçmiş nüfuzunu itirməyib. ABŞ-da öz fəaliyyətinə görə xüsusilə fərqlənən lobbiçilikdən digərləridə Yunan və erməni lobbisidir. Ümumi şəkildə müqayisə etdikdə belə nəticəyə gəlmək olur ki, siyasət və iqtisadiyyat yaxın olduğu qədər, siyasi lobbizim və iqtisadi lobbizimdə bir-birilə sıx şəkildə bağlıdır və onlar bir birilə düz mütənasiblik təşkil edir. Xarici lobbinin Amerika iqtisadiyyatına bilavasitə daxil olması orada Asiya kapitalını təmsil edən təzyiq qruplarının güclənməsi ilə sıx əlaqədardır. Hazırda ABŞ-dakı xarici iqtisadi lobbizm əsas üç xassə ilə səciyyələnir: yapon korporativ lobbisinin 70-ci illərdən qalan güclü təsiri; qüvvələrinə görə artıq yaponlarla müqayisə olunan Çin təzyiq qruplarının mövqelərinin möhkəmlənməsi; Amerika cəmiyyətinin güclü himayədarlıq reaksiyası.

Bu baxımdan lobbi fəaliyyətinin ABŞ xarici siyasəti üçün əhəmiyyəti ABŞ siyasi sisteminin strukturu ilə bağlıdır. Lobbi fəaliyyətinin subyektləri xarici siyasi proseslərə təsir göstərmək üçün əvvəlcə siyasi prosesi çox yaxşı izləməli və təhlil etməlidirlər. Kobud şəkildə desək, lobbiçiliyi şərtləndirən təməl prinsipləri və xarici siyasətlə bağlı olan maraqları gerçəkləşdirmək üçün məcburi oyun qaydalarını bilməlidirlər. Bu konteksdə təhlil etsək, lobbiçinin əsas vəzifəsi, xarici siyasi qərarların öz maraqlarına uyğun qəbul etdirilməsi üçün Konqres üzvünə dəstək vermək və tətbiq etdiyi sistemin xarici siyasətinə təsir göstərməkdən ibarətdir.

ABŞ-da xarici siyasi qərarların qəbul edilməsində iştirak edən subyektlərin hansı rola malik olmasına aydınlıq gətirək. ABŞ-da xarici siyasi qərar qəbulu mərkəzləri kimi

Prezident Adminstrasiyasını, ABŞ Milli Təhlükəsizlik Şurası, Dövlət Departamenti, Müdafiə Nazirliyi,Mərkəzi Kəşfiyyat İdarəsini qeyd edə bilərik.

ABŞ kimi prezidentli respublika quruluşlu siyasi sistemlərdə icra hakimiyyəti orqanına prezident rəhbərlik edir. Xüsusilə, ABŞ-da prezident, prezident adminstrasiyası sistemi icra hakimiyyəti strukturunda çox güclü bir mövqeyə malikdir. Prezident xarici siyasi məsələlərdə konkret bir təşəbbüs irəli sürməyə hazırlaşdıqda, əvvəlcə Konqresdə təmsil olunan hər iki partiya liderləri ilə danışıqlar aparır, hər iki tərəfin dəstəyini almağa çalışır və bu zaman fikirlərini, istəklərini hər iki tərəfə ötürür. Prezident hər iki tərəfin dəstəyini almağa çalışarkən, qarşı tərəf də fikir və istəkləri ilə qərar qəbuluna təsir göstərməyə çalışırlar. Milli Təhlükəsizlik Şurası ABŞ xarici siyasətinin əsas vəzifəli şəxsləri olan prezident, vitse-prezident, dövlət katibi, müdafiə naziri, qərargah rəisi, kəşfiyyat xidmətləri rəisi və milli təhlükəsizlik üzrə prezident müşavirini bir araya gətirir. Milli təhlükəsizlik məsələlərinin məqsəd və prioritetləri MTŞ tərəfindən müəyyən edilir və lazımi göstərişlər müvafiq bölmələrə verilir.Dövlət katibinin başçılıq etdiyi ABŞ Dövlət Departamenti isə Prezidentin və Konqresin hazırladığı xarici siyasət xəttini həyata keçirir. 1986-cı ildə qəbul edilən son qanunla Müdafiə nazirinin rolunun artırılması və hərbi məsələlərdə nazirliyin səmərəliliyinin təmin edilməsi ilə əlaqədar xarici siyasi proseslərdə Müdafiə Nazirliyinin ən təsirli orqanlardan birinə çevrilməsinə səbəb oldu.

ABŞ-da xarici siyasi məsələlərdə qanunvericiliyin icrası ilə bağlı aşağıdakıları söyləmək olar: ABŞ Prezidenti xarici siyasi məsələlərdə üstün səlahiyyətlərə malikdir. Belə ki, İkinci Dünya Müharibəsindən sonra Konqres daha çox danışıq, araşdırma və icazə səlahiyyətlərindən istifadə edərək xarici siyasət məsələlərinə əvvəlkindən çox vaxt ayırmağa başladı.

ABŞ-ın xarici siyasətinə lobbi fəaliyyəti subyektlərinin təsir imkanlarının müəyyənləşdirilməsi məqsədilə mövcud lobbi qruplarının əsas növləri, maraqları, hədəflərinə çatmaq üçün istifadə etdikləri metodlarını nəzərdən keçirək. “ABŞ xarici siya-

sətində lobbi fəaliyyəti” ilə məşğul olan subyektləri: hökumət və ya prezident lobbisi, biznes lobbisi, xaricilərin və etnik lobbilərin fəaliyyəti kimi qruplaşdırmaq olar”.

Hökumət lobbisi Ağ evin, 14 Departamentin, dövlət agentliklərinin, hökumət korporasiyalarının hər birinin müvafiq olaraq konqres və KİV-lə əlaqələr üzrə şöbələri vəsitasilə konqresə təsir etməsi nəzərdə tutulur. Lobbi qanunvericiliyi bu tip əlaqəlari bəzən qadağan etsə də, ABŞ qanunvericiliyinin mürəkkəbliyi, 1921-ci ildə Büdcə bürosunun yaradılması, beynəlxalq aləmdə ABŞ-ın rolunun artması təcili, adekvat qanunvericilik bazasının yaradılmasını zəruri etmişdir.Hakimiyyət qolları arasında əməliyyatların çoxalması da lobbi fəaliyyəti üçün geniş imkanlar yaradır. Belə ki, hər il ABŞ dövlət orqanları öz aralarında 40 milyarddan çox elektron məktub yazırlar. XX-ci əsrin 80-ci illərinin sonunda Pentaqona Konqresdən ildə 100 mindən çox məktub və 200 mindən çox telefon sorğusu, dövlət departamentinə isə hər ay 2000-ə yaxın məktub sorğusu daxil olurdu.

Hökumət lobbisinin yaranma tarixini prezident V.Vilsonla bağlayırlar. Məhz o, keçmiş konqresmenlər A.Burleson və C.Qarneridən gizli lobbist kimi istifadə etmişdir. F.Ruzveltdən başlayaraq prezidentlər qanunverici orqanla əlaqələr departamentinə konqresmenlərlə yaxşı münasibətləri olan öz dostlarını təyin etməyə başladılar. Məlumdur ki, ABŞ-da yeni prezident seçildikdə, 2500-dən çox vəzifələr yeniləyirlər. Bu vəzifələri tutmaq üçün konqresmenlar də çalışırlar. Bu amil hər iki hakimiyyət qolunu yaxınlaşdırır.

Prezidentin konqresə şəxsən təsiretmə imkanı də əhəmiyyətlidir. Belə ki, prezident institutu ABŞ-də yüksək dövlət simvolu hesab olunduğundan, onun konqresmenlər qarşısında çox vacib məsələ ilə əlaqədər çıxış etməsi konqresmenlərin mövqeyinə ciddi təsir edir. Həmçinin, prezidentin adi veto hüququ ilə bərabər təcrübədə “cib vetosu” adlanan güclü təsiretmə mexanizmi də vardır. Bu zaman konqres sessiyasının qurtarmasına 10 gün qaldıqda prezident cib vetosunu tətbiq edərsə, qanun layihəsi heç bir halda qüvvəyə minə bilməz. Hökumətin lobbi strukturunda vitse-prezidentin də böyük əhəmiyyəti vardır. Vitse-prezident, eyni zamanda Senat sədri olub, böyük zərurət

olduqda konqresdəki səslərin nisbətinə təsir edə bilər və vitse-prezidentin köməkçiləri plenar iclaslarda iştirak edərək, qanunvericilik prosesində fəal ola bilərlər (34, səh 89).

Hökumət lobbisi bəzi hallarda hüquq firmalarının xidmətindən, həmçinin biznes və etnik lobbilərin imkanlarından istifadə edir. ABŞ-dan siyasi dəstək almaq, iqtisadi yardım əldə etmək, ticarət əlaqələrini genişləndirmək və s. məqsədilə hökumət lobbisi "grassrootinq" metodundan istifadə edir (15, səh 23)."Grassrooting" "siyasi qərarlara təsir edə bilən, əsaslı siyasi gücün müəyyənləşdirilməsi, işə götürülməsi və səfərbərlik" kimi müəyyən edilə bilər (15, 232; 230, 182).

Bununla əlaqədar olaraq, peşəkar lobbiçilər ictimai təzyiqin qanunverici orqanın üzvünün fikrini dəyişdirə bilmədiyi halda belə məsələyə diqqət çəkdiyini bildirirlər. Məsələn, XX-ci əsrin 80-ci illərin sonunda Meksika NAFTA ilə bağlı məsələlərin konqresdən keçirilməsi üçün ABŞ hüquq firmalarına 25 milyon dollar qonorar keçirmişdir.

Hökumət lobbisi kadrlarının istifadə etdiyi metodlar digərləri ilə eyni olsa də, bəzi spesifik xüsusiyyətləri də mövcuddur. Belə ki, inzibati resurslardan istifadə edilərək konqresmenin razılığını almaq üçün onun dairəsinin problemləri həll olunur, partiya həmrəyliyi, konqresmenin əlaqəsi olduğu biznes dairələrindən, o cümlədən məşhur adamlardan, dostlarından, ailə üzvlərindən istifadə olunması və s. halları göstərmək olar. Prezidentin müvafiq seçki dairəsinə səfər etməsi, namizəd haqqında müsbət mövqe nümayiş etdirməsi konqresmenin seçilməsini labüd edir. Konqresmenin ştatına hökumət yardımları edilməsi, müvafiq ştatdakı biznes dairələrinə vergi güzəştləri edilməsi, eyni zamanda kompromat, şantaj, maliyyə maxinasiyaları, rüşvət, sevgi intriqaları müasir dövrdə azalsa da, bəzən müşahidə olunan məqamlardır(15, səh 231). ABŞ-da lobbi təşkilatlarının illik dövriyyəsi 4 milyard dollar civarındadır. Belə möhkəm bir təməl üzərində qurulan mexanizm, Konqresdəki təzyiq qruplarının sayını və müxtəlifliyini artırır. Zamanla bir çox sənaye sektoru, ictimaiyyətlə əlaqələr qrupları, təkməqsədli təşkilatlar, siyasi fəaliyyət komitələri və xarici ölkələr təsir sahəsi yaratmaqda aktiv rol oynayırlar. Bu çərçivədəki uğurlar fərqli və mürəkkəb lobbiçilik texnikalarının tətbiqi

nəticəsində baş verir. Ancaq burada qeyd olunan uğurların sırf və obyektiv olaraq ictimai maraqlara uyğun olub-olmaması digər müzakirə mövzusudur. Lobbi fəaliyyəti demokratik bir cəmiyyətdə müdafiə oluna biləcək bir təmsilçilik və güc hərəkəti olmaqla yanaşı, Konqres tərəfindən cəmiyyətin xeyrinə qəbul edilən bütün qanunlardan daha çox, bu fəaliyyətin kiçik, lakin mütəşəkkil və maliyyə cəhətdən güclü qrupların marağında olması ümumən qəbul edilməkdədir. Bu qruplar öz tezislərində güzəştə getmək əvəzinə öz maraqlarını güdərək mümkün problemləri önə çəkdikdə, buna qarşı çıxan Konqres üzvləri seçki prosesi dövründə bu qrupların təzyiqi ilə qarşılaşmaqla çətin bir vəziyyətdə qalırlar. Bu zaman əhəmiyyətli olan daha bir amil qanunvericilik orqanı nümayəndələrinin lobbiçilərinin fikirlərini dərk edəcək və ya ona qarşı çıxa biləcək bilik səviyyəsində olmalarıdır. Burada vacib məqam tərəflərin bərabər şərtlərdə təmsilçini məlumatlandırmaq imkanına sahib olmasıdır. Nəticədə, mühüm əhəmiyyət kəsb edən digər bir məsələ, prosesin dəqiq işləməsi, təmsilçinin uyğun niyyətlə, məsələyə hakim olaraq və ədalətli bir şəkildə təzyiqlərə qarşı dayanaraq qərar qəbul etməsi, ehtiyac yarandığı təqdirdə yenidən seçilmə fürsətini cəmiyyətin ümumi maraqları istiqamətində riskə ata bilməsidir. İkincisi, məhkəmə səlahiyyətlərindən istifadə edilməklə, lobbi fəaliyyətinə nəzarət etmək üçün onun nizamsız maliyyə axınının və qeyri-bərabər rəqabətin qarşısını almasıdır. Üçüncüsü, lobbiçilər bu müddətdə daim ehtiyac duyduqları maddi resurslardan başqa kütləvi fəaliyyət tədbirlərini yaxşı tənzimləməli, ən son texniki yeniliklərini optimal tətbiq etməli (elektron lobbiçilik), böyük təsir imkanına malik olan qanunvericilik orqanı nümayəndəsi ilə yaxşı təmas qurmalı, zəruri mesajları dəqiq bir şəkildə çatdırmağı bacarmalı, vaxtdan yaxşı istifadə etməli və qarşı tərəfin gücünü tənzimləməyi bacarmalıdır.

Bütün bunlar demokratik qaydaların formalaşmasına imkan yaradan əsas xüsusiyyətlər olmaqla bərabər, yaxşı təşkil olunmuş və güclü maddi imkanlara malik olan lobbiçilərə rəqibləri ilə müqayisədə daha böyük uğurlar əldə etməyə imkan verə bilir.

Lobbizm tez-tez siyasi və iqtisadi elitalar arasında bir körpü rolunu oynayır, bu da ikincilərə hökumət işlərində iştirak etməyə imkan verir. Son zamanlarda ABŞ-da bu iki

elitanın artan birliyini görə bilərik. Bu gün böyük biznes siyasi proseslərə getdikcə daha çox təzyiq göstərməyə başlayır. ABŞ konqresində qeydiyyatdan keçmiş və ya keçməmiş lobbistlərin böyük əksəriyyəti biznesin nümayəndələridir. Bu, ilk növbədə, ABŞ şirkətlərinin transmilli maraqları ilə əlaqədar olaraq, iqtisadi maraqlara siyasi maraqlar vəsitəsilə təminat yaradılması, onların təhlükəsizliyinin qorunması ilə bağlıdır. Belə ki, ABŞ dünyada investisiya yatıran ən böyük dövlətdir və bu il ərzində orta hesabla 300 milyard dollar təşkil edir. 2015-ci ildə ABŞ şirkətlərinin təkcə AB ölkələrində investisiyaları 2,7 trilyon dollar (ümumi investisiyanın 53,1%), Yaponiyada 108,5 milyard dollar (2,2%), Sinqapurda 228,6 milyard dollar (4,5%), Avstraliyada 167,4 milyard dollar (3,3%), Kanadada 352,9 milyard dollar (7%) təşkil etmişdir. (40) Bu vəsaitlərin daha da artırılması və sabitliyinin təmin olunması üçün lobbistlər siyasi alətlərdən istifadə etməyə çalışırlar. Həmçinin biznes lobbistlərinin digər fəaliyyəti kimi vergi güzəştlərinin edilməsi, hökumət sifarişlərinin ayrılması və s. məsələləri göstərə bilərik.

Nəhəng biznes qrupları, xüsusən, hərbi-sənaye şirkətləri, energetika müəssisələri özlərinin rəhbər orqanlarına müxtəlif siyasətçi, iqtisadçı, hərbçi və digər nüfuzlu şəxsləri təyin edir, elmtutumlu müəssisələri maliyyələşdirməklə məqam düşəndə öz kadrlarını hökumət və ya konqresə ötürməyə çalışırlar. Heç təsadüfi deyildir ki, vitse-prezidentdən başlamış kiçik şöbə rəhbərinə kimi olan şəxslər biznes dairələrində də təmsil olunurlar. Belə ki, iri hərbi- sənaye şirkəti olan “Lokhid”-in rəhbər vəzifələrində 200-dən çox istefada olan zabit çalışır. Müxtəlif dövrlərdə ABŞ müdafiə nazirləri olmuş C.Forrestol, L.Conson, Ç.Vilson, R. Maknamara və başqaları müvafiq olaraq, “Kraysler”, “Ceneral elektrik”, “Ceneral motors”, “Boinq” şirkətlərinin rəhbərləri olublar.

Transmilli şirkətlərlə ABŞ hökumətinin münasibətləri bir-birini tamamlayır. Hökumət vəsitəsilə liberal qanunvericiliyə malik dövlətdə xammal mənbəyi, ABŞ hökumətinin müvafiq dövlətə təqdim etdiyi maliyyə imkanları vəsitəsilə satış bazası əldə edən şirkətlər böyük investisiyalar yönəltməklə regional sabitliyə nail olur, ABŞ büdcəsi

üçün yeni maliyyə mənbəyi əldə edir, amerikan ideologiyasının yayılması üçün əlverişli şərait yaradır və beləcə, ABŞ-ın mövqeyini regionda möhkəmləndirir (81, səh 34-35).

Xarici siyasətə təsir baxımından xarici və etnik qrupların formalaşdırdığı lobbiçilik aparıcı yer tutur. Cəmiyyətin fəal üzvləri ilə əlaqələri sayəsində etnik qruplar və Konqres arasında təmas nöqtələrini yarada bilən bu lobbi qrupları [məsələn, Kuba lobbisi], əsasən nüfuzlu mühacirlər tərəfindən təbliğ olunur. Xarici lobbiçilik, öz növbəsində, xarici dövlətin maraqlarının təbliğini nəzərdə tutur, lakin etnik lobbiçilikdən fərqli olaraq, onun əsas istiqaməti lobbi fəaliyyəti dairəsində yaşayan etnik icmalar deyil. Xarici lobbiçilik daha geniş bir anlayışdır və etnik lobbiçilik onun ayrılmaz hissəsidir.

1996-cı ildən bəri xarici lobbilər yerli lobbilərlə eyni statusa malikdirlər. "Lobbi Fəaliyyətinin Aşkarlığı haqqında" Qanun xarici mənşəli lobbi qruplarının fəaliyyətlərini ABŞ lobbi təşkilatları kimi eyni qaydada qeydiyyata alınmağı nəzərdə tutur. Bu qanunun qəbulu nəticəsində xarici təzyiq qruplarının fəaliyyətləri rəsmi xarakter kəsb etdi. Bəzi lobbilər Amerika siyasi arenasında kifayət qədər ciddi dayaqlar əldə edə bildilər. Zbignev Bjezinski qeyd edir ki, ən böyük təsirə malik xarici mənşəli lobbi qrupları kimi İsrail, Kuba və erməni lobbilərini aid etmək olar. Onların ən güclüsü ABŞ-da yaşayan və bir-biri tərəfindən dəstəklənən etnik icmalardır. İcma lobbiçiləri sistem daxilində fəaliyyət göstərə bilir, qeyri-rəsmi kanallardan istifadə edir və buna görə birbaşa diplomatiyadan daha təsirli metodlara çıxış əldə edirlər.

Yuxarıda qeyd etdik ki, lobbiçilik bizneslə yanaşı, digər hökumət strukturları ilə də əlaqəlidir. Bunlar ictimai təşkilatlar, birliklər və istənilən ictimai qurumlardır ki, malik olduqları mexanizmlərindən hakimiyyətə təsir etmək üçün istifadə edə bilərlər. Daxili lobbiçiliyin mövqeləri kifayət qədər şəffaf olsa da, xarici siyasi lobbi fəaliyyəti ətrafında bir sıra qaranlıq məqamlar, suallar qalmaqdadır. Bu vəziyyətdə xarici siyasi lobbi fəaliyyəti dedikdə, həm daxili lobbi qrupları, həm də etnik və xarici lobbiçilər tərəfindən xarici siyasi qərarların dövlət strukturları tərəfindən qəbul edilməsinə təsir etmək cəhdi kimi başa düşülür.

Bu gün qloballaşma prosesi lobbi qruplarının fəaliyyətinin yalnız bir dövlətin ərazisi ilə məhdudlaşmadığına zəmin yaradır. Transmilli şirkətlərin, beynəlxalq maliyyə qurumlarının və digər dünya miqyasında analoji böyük oyunçuların maraqları açıq şəkildə dövlətlərin hüdudlarından kənara çıxır və beynəlxalq lobbiçilik kimi bir fenomenin inkişafına öz töhfəsini verir.

Xarici lobbilər üçün təzyiqi artırmağın təsirli bir üsulu yaxın iqtisadi əlaqələr qurmaqdır. Xarici firmaların böyük Amerika firması ilə qarşılıqlı iqtisadi əlaqələrinin yaranması, yerli Amerika şirkətlərinin özlərinin başqa bir dövlətin lehinə lobbi fəaliyyətində iştirak etməsinə səbəb olur, çünki bu onların ümumi işlərinin inkişafına kömək edir.

Etnik lobbiçilik əsasən mühacir icması [diaspora] üzvləri tərəfindən həyata keçirilən lobbi fəaliyyətidir. Bununla belə, bu lobbi növü xarici lobbiçiliklə birbaşa əlaqədardır, çünki aktiv etnik icmalar əsasən tarixi vətənləri ilə sıx əlaqə saxlayır və bunun üçün etnik vətənlərinin maraqları uğrunda fəaliyyət göstərirlər. Bu etnik lobbilərin müdafiə etdikləri və ya əldə etmək istədikləri məsələlər etnik qrupun milli-mənəvi və ya onların ümumi maraqlarına təsir edən qərarlarla bağlıdır. Təsir imkanlarını və əlaqələrini daha çox lobbi fəaliyyəti göstərdikləri dövlətin qanunverici və icraedici hakimiyyətinə yönəldən etnik lobbilər digər qruplardan daha qapalı və gizlidirlər. Etnik lobbilər öz vətənlərinin maraqlarını müdafiə etdikləri və bu maraqlarını yaşadıqları ölkənin maraqlarından daha yüksək tutduqları üçün daha həssasdırlar və məqsədlərinə çatmaq üçün bir çox üsullardan istifadə etməyə hazırdırlar. Politoloq Paul Y.Vatanabe məsələ ilə bağlı fikirlərini izah edərkən belə bir məqamı vurğulayır: "Etnik qrupların tətbiq etdikləri taktikalar, strategiyalar çox genişdir və onları birbaşa müəyyənləşdirmək çox çətindir. Xarici siyasət məsələlərində söz sahibi olan dövlət məmurları etnik qrupların əsas hədəfidir" (27, səh 48).

Bəzi etnik qrupların və kommersiya təşkilatlarının öz fikirlərini birbaşa mətbuat vasitəsi ilə ifadə etmələri halları müşahidə olunur. Lakin bu metodun cəmiyyətdəki əsas mənzərəni müəyyən edən elementlərə təsiri mübahisəlidir.

Ümumiyyətlə, ABŞ-da etnik lobbizm geniş yayılmış siyasi alətə çevrilmişdir. Bunu, ilk növbədə, Amerika etnogenezinin müxtəlif etnoslardan təşkil olunması ilə əlaqələndirmək olar. Müxtəlif vaxtlarda ABŞ-a Avropa, Asiya, Afrikadan gəlmiş mühacirlər ən çoxu bir neçə nəsildən sonra özlərinin dil, din və digər milli identifikasiyalarını amerikalı kimi təsdiq etsələr də, onlarda etnik gen nəsildən-nəslə keçməkdə davam edir, müxtəlif vaxtlarda immiqrasiya etdiyi ölkə ilə bağlı hadisə baş verdikdə həmin şəxsdə etnik gen oyanmaqla öz reaksiyasını büruzə verir. Buna görə də ABŞ-də etnik loyallıqla bağlı siyasi təsir üsulları Amerika demokratiyasının ayrilmaz hissəsi hesab olunur.

İlk etnik lobbi fəaliyyəti 1794-cü ildə ABŞ-la İngiltərə arasında imzalanmış "Cey müqaviləsi"nə qarşı irland və yəhudilərin etirazlarında təzahür edib. Sonralar 1899-1902-ci illər ingilis-bur müharibələri ilə əlaqədər hollandların, 1919-cu il Versal müqaviləsinin əleyhinə alman və italyanların lobbi fəaliyyətlərini də göstərə bilərik.

Etnik lobbi qrupları diasporunun say tarkibinə, maliyyə imkanlarina, elitarizmə (yəhudi, alman, irland, erməni və s.), din amilinə (pravoslav, katolik və müsəlmanlar) əsaslanırlar. Həmçinin qeyri-rəsmi olaraq qəbul olunub ki, etnik lobbi qrupları demokratları, erməni və zəncilər isə respublikaçıları dəstəkləyirlər.

Etnik lobbinin ən böyük qələbəsi 1888-ci ildə olub. Həmin vaxt prezident Q.Klivlendin (1885-1889, 1893-1897) Samoadakı siyasəti alman lobbisinin səsini itirməsi və Klivlendin uduzması, yalnız 4 ildən sonra yenidən seçilməsi ilə nəticələndi. Etnik lobbilər, əsasan, təbliğat kampaniyasına üstünlük verir, hüquq firma-larının ehtiyaclarından az istifadə edirlər. Konqresdə etnik lobbilər, əsasən, etnik təşkilatlar vasitəsilə qeydiyyatdan keçirlər.

Göründüyü kimi, etnik və xarici lobbilər fərqli olsa da, eyni etnik və vətəndaşlıq tarixi olan etnik lobbi və xarici lobbilər arasında üzvi bir əlaqə var, ancaq onları ayırmaq çətindir. Bu baxımdan lobbi fəaliyyətinin xarici siyasətə təsirini araşdırarkən xüsusilə etnik lobbiləri araşdırmaq məqsədəuyğundur.

ABŞ-dakı uzunmüddətli investisiyalarını risk altına atmamaq üçün etnik lobbilər xarici siyasi proseslərə zərər verə biləcək və münaqişə yarada biləcək bir fəaliyyətdən

qazanc əldə edilməsini qarşılarına hədəf kimi qoymurlar. ABŞ-da etnik lobbilərin təsirli olmasının əsas səbəbləri qloballaşan dünyada mühacirlər ölkəsi olan ABŞ-ın milli kimliyini qorumaq ehtiyaclarına uyğun olaraq öz ölkələrinin ABŞ-ın siyasətinə təsir göstərməsi üçün bu qruplardan istifadə etməyə yönəlməsidir. Onların öz dillərində danışa bilməsi imkanları, dinlərinə, adət-ənənələrinə və mədəniyyətlərinə uyğun yaşaması və özlərini rahat ifadə etmək fürsətinin olması bu etnik qrupları digər təzyiq qruplarından fərqləndirir. Bu etnik qrupun cəmiyyətdə siyasi proseslərdə aktiv olması seçki prosesi zamanı kütləvi səs almaq istəyən siyasətçilər üçün də fürsətlər yaradır.

ABŞ-da etnik lobbi qruplarından zəncilərin rolu böyükdür. Düzdür, hal- hazırda ABŞ zənciləri arasında təmiz zənci cəmi 18-20% qalsa da, digər qarışıq qruplar da özlərini zənci kimi identifikasiya edirlər. Məlumdur ki, zəncilər Amerikada buranın məskunlaşması dövründən qul kimi Afrikadan gətirilmişdir. XIX əsrdə ABŞ-da quldarlıq ləğv olunsa da, yalnız XX əsrin 50-60-ci illərindən zəncilər ağdərilərlə bərabərhüquqlu olmuşlar.

Uzun müddət diskriminasiya olunmaları, XX əsrin 60-ci illərində Afrikada Milli azadlıq hərəkatının başlanması, daxili mübarizələr və s. zəncilərin özlərini Afrika ilə identifikasiya etməsinə, öz yerlərinə münasibətdə xiffət hisslərinin oyanmasına səbəb olmuşdur. Bundan sonra Afrikanın, xüsusilə, cənub ölkələrinin müdafiə olunması ilə əlaqədar yüzlərlə təşkilat yarandı, zənci kokusu konqresin ən güclü qruplaşmasına çevrildi. ABŞ-daki zənci lobbisinin imkanlarından bir çox Cənubi Afrika ölkələri (CAR, Ruanda, Zimbabve, Uqanda və s.) fəal istifadə edirlər.

Zəncilər, əsasən, demokratları dəstəkləsələr də, son zamanlar respublikaçıların onları öz tərəflərinə çəkmək istiqamətində fəaliyyət göstərirlər. Xüsusilə, C.Buş hökumətində zəncilərdən K.Pauellin dövlət katibi, K.Raysın isə milli təhlükəsizlik üzrə köməkçi təyin olunmasını göstərmək olar. Ümumiyyətlə, zəncilər ABŞ əhalisinin 12,5%-ni (35 milyon nəfər) təşkil edirlər. ABŞ ordusunun 20%-i, quru qoşunlarının isə 30%-i zəncilərdir. ABŞ konqresində, adətən, 23-24 zənci olur. ABŞ prezidentləri, xüsusən demokratlar Afrika ölkələrinə müntəzəm səfərlər edirlər. Zənci lobbisinin ən

böyük uğuru kimi 1986-ci ildə prezidentin etirazlarına baxmayaraq, konqresin CAR-a zəncilərin sıxışdırılması ilə əlaqədar sanksiya tətbiq etməsini göstərə bilərik.

Yunan lobbisi XVIII əsrdən ABŞ-a köçmüş 1,3-3 milyonluq etnik yunanlardan təşkil olunub. Yunan lobbisinin məqsədi ellinizmi qorumaq, Yunanıstanın inkişafina yardım etmək, Türkiyəyə qarşı mübarizə aparmaq, Kipr məsələsini öz xeyirlərinə həll etmək və s. Yunan lobbisi ABŞ-da 2 milyonluq pravoslav kilsəsinin imkanlarından da istifadə edir. Yunan lobbisinin ən böyük uğuru 1974-cü ildə ABŞ-ın Türkiyəyə silah satışına bir neçə il embarqo qoymasıdır. 1992-ci ildə Makedoniya əleyhinə tətbiq olunmuş qadağalarda də yunan lobbisinin əli olmuşdur.

Yunan lobbisinin ABŞ-da 400-dən çox ictimai-siyasi təşkilati, 30-dan çox qəzeti, 10-dan çox jurnalı, TV və radioları fəaliyyət göstərir.Yunan lobbisi konqres və hökumətdə daim təmsil olunmuş, Din Açeson Trumen dövründə ABŞ-ın dövlət katibi, Spiro Aqnyu Nikson dövründə vitse-prezident olmuşdur. Yunanlar əsasən Massaçusets ştatında cəmləşdiklərindən həmin ştatın bir neçə qubernatoru (Zesalli, Dukakis) yunan olub.

ABŞ-də sayı bir milyonu keçən türklərin lobbisi XX-ci əsrin 70-ci illərindən formalaşıb. Onun fəaliyyətinin əsas istiqamati "erməni soyqırımının" tanınmamasına çalışmaq və Kipr problemi ilə bağlı məsələləri həll etməkdir. Hazırda konqresdəki türk kokusunda 45 konqresmen vardir.

ABŞ-da digər güclü lobbi ərəb lobbisi hesab olunur. Ərəb lobbisi 3 milyonluq, bir neçə milyonluq müsəlmanlara və güclü neft lobbisinə arxalanır. Ərəb lobbisi böyük maliyyə imkanlarının olmasına baxmayaraq, KİV-dən, kütləvi aksiyalardan az istifadə edirlər.

Beləliklə, ABŞ xarici siyasətinə təsir edən lobbi qruplarını, onların tətbiq etdikləri metod və üsulları nəzərdən keçirdikdən sonra belə bir nəticəyə gəlmək olar ki, "çə-kindirmə və balanslaşdırma" siyasətinə əsaslanan ABŞ-da lobbilərin xarici siyasətinin daha uğurlu, təsirli, tarazlaşdırıcı və xüsusən sabitləşdirici olmasında böyük əhəmiyyəti vardır. Məhz bu səbəblərdən yəhudi lobbisinin təsirindən ərəb, yunan lobbisinin

təsirindən isə türk lobbisinin formalaşmasını qeyd edə bilərik. Bu tarixi analogiyanı erməni lobbisinin fəaliyyəti ilə əlaqədar Azərbaycan lobbisinin yaranmasına da tətbiq edə bilərik. Ən azı bu lobbinin Qarabağ münaqişəsinin həlli üçün böyük əhəmiyyəti vardır.

Vaşinqtonda lobbi fəaliyyətinin vacib bir hissəsi bu sahədə xarici vətəndaşların gördüyü işlərdir. Ölkədəki xarici ölkələrin təmsilçiləri, xarici qruplar, firmalar, təşkilatlar Amerika lobbiçilərinin və lobbi şirkətlərinin dəstəyini təmin etməklə yanaşı özləri də lobbi fəaliyyətlərini həyata keçirərək öz maraqlarını reallaşdırmağa çalışırlar. Təzyiq qrupları və ya lobbilər, demək olar ki, hər hansı bir sistemdə, istər avtoritar, istərsə də demokratik sistemlərdə mövcuddur və qərar qəbul edənlərin qərarlarına təsir göstərmək üçün çalışırlar. Təzyiq qruplarının dövlətin içinə sızmasıvə onların dövlət siyasətinə birbaşa təsiri demokratik sistemlərə böyük ziyan vura bilər.

Əksər xarici və etnik lobbilər özlərinin dar maraqları ilə ABŞ-ın xarici siyasi proseslərinin demək olar ki, bütün sahələrinə mümkün təsir göstərə bilirlər. İsrail nümunəsi sübut edir ki, xarici dövlət bəzən ABŞ siyasi sisteminə o qədər dərindən nüfuz etmək imkanına malik olur ki, o, hakimiyyətin ən yüksək məmurlarını öz ölkəsinin həqiqi milli maraqları ilə güçlü təsirləndirə bilir.  Belə təsir imkanlarına malik olmağın səbəbləri kimi İsrail lobbisinin ABŞ siyasi həyatında yəhudi diasporasının rolu, hökumət dairələrində loyal nüfuzlu insanların olması və s. Lobbi fəaliyyətində mövcud olan bütün əsas vasitələrdən istifadə edilməsi, ideoloji yaxınlıq Vaşinqtonda İsrail mövqelərinin möhkəmlənməsində də mühüm rol oynayır. Nəticədə, İsrail lobbisi xarici siyasətə təzyiq göstərmək üçün ideal lobbinin bir modeli olaraq ortaya çıxır və onun fəaliyyəti birbaşa və dolayı lobbi vasitələrindən istifadənin effektiv birləşməsini əks etdirir.

Xarici siyasi qərarların qəbulunda effektiv lobbi fəaliyyətinin təşkili əslində hökumət dairələrində ciddi dəstəyin olmasını tələb edir, çünki bu dəstək olmadığı təqdirdə, lobbi təşəbbüsləri daha güclü qruplar tərəfindən asanlıqla sıxışdırıla bilər.

XIX əsrdən etibarən lobbi fəaliyyəti ABŞ-da özünün indiki anlamda formalaşması ilə nəticələndi. Maraqlıdır ki, 1829-cu ildə məşhur silah sənayeçisi Samuel Kolt əhalinin silah əldə etməsini asanlaşdıra biləcək qanunun qəbulu üçün bütün konqresmenlərə dekorativ revolver bağışlamışdı. Məhz bu dövrdən silahın amerikanlıların məişətinə aktiv daxil olması, "ABŞ demokratiyasının təminatçısı ABŞ Konstitusiyası yox, mister Koltdur" – aforizminin meydana gəlməsinə səbəb olmuşdur.

Hesab olunur ki, "lobbist" terminini ABŞ siyasi leksikonuna prezident U.Qrant (1869-1877) gətirmişdir. Məhz o, vestibüldə (ing. – lobby) hər hansı siyasi-iqtisadi xahişlərlə əlaqədar gözləyən və onun qəbulunu gözləyən şəxsləri belə adlandırmışdır. Bu şəxsləri o ya Ağ Evdə, ya da yaxınlıqdakı Willard otelində qəbul edirdi (28, səh 125).

Lobbi institutu ilk növbədə ABŞ-da geniş inkişaf etmiş və orada siyasi prosesin atributlarından birinə çevrilmişdir. Siyasi fəaliyyət növü kimi lobbiçilik tez-tez rüşvətxorluq və digər qərarverənlərin qanunsuz təsir vasitələrilə üzləşdiyindən hüquqi tənzimlənmə tələb edir. Tənzimlənməsinə görə dünyada lobbiçiliyin iki modeli fərqləndirilir:

• lobbi təşkilatlarının məcburi dövlət qeydiyyatını və təzyiq qruplarının spesifik funksiyalarının müəyyənləşdirilməsini nəzərdə tutan anqlosakson (ABŞ, Kanada, Avstraliya, bir sıra digər ölkələr) modeli;

• Marağı olan təşkilatların qanunverici orqan nəzdindəki komitə və komissiyaların işində iştirak edərək qərar qəbul edənlərə təsir göstərmək imkanları yaradılan Avropa və ya kontinental (İtaliya, Almaniya, Fransa) modeli.

Lobbi fəaliyyəti ABŞ-da inkişaf etdiyindən, hüquqi cəhətdən tənzimlənməsi də ABŞ-da ştat və federal qanunları ilə gerçəkləşib. Belə ki, ilkin hüquqi əsası kimi 1791-ci ildə qəbul olunmuş ABŞ Konstitusiyasının birinci düzəlişi hesab olunur. Bu düzəliş hər bir vətəndaşın konqres və digər orqanlara petisiya ilə müraciət etmək hüququ təsbit olundu. Bundan sonra lobbi ilə bağlı müxtəlif qanunlar qəbul olundu.

ABŞ-da lobbiçiliyi tənzimləyən ilk federal qanun xarici lobbi fəaliyyətinin hüquqi tənzimlənməsi zərurətindən irəli gələn və Konqresin1938-ci ildə təsdiqlədiyi "Xarici agentlərin qeydiyyatı Aktı" (FARA) oldu .Qanuna əsasən xarici agent siyasi fəaliyyət göstərir, ictimaiyyətlə əlaqələr üzrə məsləhətçi, reklam agenti, məlumat məmuru və ya siyasi məsləhətçi kimi çıxış edir, ABŞ hökumətinin istənilən agentliyi və ya rəsmi nümayəndəsi ilə münasibətlərdə bu təşkilatın maraqlarını təmsil edir, töhfələr, borclar, pullar və ya pul dəyəri olan əşyalar tələb edir, toplayır, xərcləyir və ya paylayır. Qanun digər dövlətlərin maraqları naminə fəaliyyət göstərən təşkilatlara Ədliyyə Nazirliyində qeydiyyatdan keçmələrini, fəaliyyətləri və maliyyələşdirmə mənbələri barədə mütəmadi hesabat vermələrini məcbur etdi. Qanuna əsasən xarici təşkilatların adından, o cümlədən xarici dövlətlərin hökumətlərinin, siyasi partiyalarının, şirkətlərin və digərlərinin adından çıxış edən, təbliğat və digər xarakterli lobbi fəaliyyəti göstərən hüquqi və fiziki şəxslər ABŞ hökuməti, bu və ya digər vəzifəli şəxs yanında onu təmsil edə bilər. Qanun xarici təşkilatların lehinə və ya onun adından təbliğat və digər fəaliyyətlərlə məşğul olan şəxslərin məlumatlarının ictimaiyyətə açıqlanmasını təmin etdi.

1938-ci ildə qəbul edilmiş qanunla xarici agentlərə lobbiçilik funksiyalarının (məsələn, təşkilatın maraqlarını təmsil etmək) şamil edilməsi II Dünya müharibəsindən sonra xarici şirkətlərin ABŞ-da maraqlarının təbliğinə kömək etdi. 1966-cı ildə bu qanuna dəyişiklik edilməsi ilə ABŞ hökuməti tərəfindən qərar qəbul etmə prosesinin bütövlüyünün təmin edilməsinə istiqamətləndirildi. Xarici mənşəli subyektlərin lobbi fəaliyyəti rəsmi olaraq tanındı. Qanunun yeni variantda qəbulu nəticəsində siyasi fəaliyyətlə məşğul olan istənilən şəxsin xarici prisipalın [xarici hökumət, siyasi partiya, ABŞ-dan kənarda olan şəxslər və təşkilatlar] agenti kimi məcburi qeydiyyatdan keçməsini nəzərdə tuturdu.Bununla da, 1938-ci ildə qəbul edilmiş qanundakı təyinatla müqayisədə agentin fəaliyyəti məhdudlaşdırıldı [248].Yeni tənzimləmə mexanizminə əsasən, bir şəxsin xarici agentlərin reyestrinə daxil edilməsində həmin şəxsin xarici prisipalın maraqlarına uyğun fəaliyyət göstərəcəyinin, dövlət orqanlarında xarici şəxsin

maraqlarını təmsil edəcəyinin sübut olunması tələb olunurdu (15,səh 96).Bu, dövlət orqanları üçün sübut prosedurunu çətinləşdirdi və 1966-cı ildən bu yana 1938-ci il qanununun pozulması ilə əlaqədar heç bir məhkumetmə qərarı qəbul edilmədi.

Qeyd etmək lazımdır ki, 1938-ci il Qanununun müddəaları diplomatik və konsulluq nümayəndəliklərinin üzvlərinə; xarici dövlət orqanlarının vəzifəli şəxslərinə (əgər səlahiyyətləri daxilində fəaliyyət göstərirsə); xarici bir prinsipalın tibbi yardım üçün ABŞ daxilində vəsait və ianələr toplamaq üçün şəxsi və qeyri-siyasi fəaliyyətlə məşğul olan şəxslərə; dini, təhsil, elmi məsələlərə və yaradıcılığa dəstək fəaliyyəti ilə məşğul olan şəxslərə; xarici prinsipalı ABŞ məhkəməsi və ya hökumətində təmsil edən təcrübəli peşəkar hüquqşünaslara  şamil edilmir.

Lobbi fəaliyyətinin tərkib hissəsi kimi "beyin mərkəzləri"– iri elmi-tədqiqat mərkəzlərinin, universitetlərin nəzdindəki tədqiqat institutlarının və başqalarını göstərə bilərik. Trilateral, Brukinq institutları, Rend korporasiyası, Corctaun Universitetinin Strateji Tədqiqatlar Mərkəzini və s. Bu kimi mərkəzlərdə müxtəlif elm, siyasi, biznes nümayəndələri cəmləşərək mühüm akademik mərkəz kimi konqresdə, KİV-də, digər ictimai-elitar mərkəzlərdə çıxışları və mövqeləri elitar təbəqənin mövqeyi kimi qəbul edilir. "Bilderberq klubu", "Bohemiya klubu" və digərləri iri biznesmenlərin, hakim dəirələrinin nümayəndələrinin cəmləşdikləri klublar olub, müasir dövrün ən mühüm problemlərini müzakirə edirlər.

Lobbi fəaliyyətinin maliyyələşdirilməsində "Ford fondu", "Rokfeller fondu", "Karnegi fondu" və digər bu kimi filantropik fondlar də iştirak edirlər. Göründüyü kimi, lobbi institutunun təcrübədə geniş mexanizmə, qanuna zidd metodlara, maliyyə mənbələrinin müxtəlifliyinə və s. malik olması yeni hüquqi tənzimetmə mexanizminin tətbiq edilməsinin zəruriliyini labüd edir.

Bütünlükdə, lobbi fəaliyyətinin tənzimlənməsi vətəndaşların konstitusyon hüquq və azadlıqlarına, konstitusiya prinsiplərinə riayət edilməsinə əsaslanmalıdır. Lobbiçilər üçün qadağaların və davranış qaydalarının yaradılması vətəndaşların dövlət orqanlarına müraciət etmək, məlumat əldə etmək azadlıqlarına dair konstitusiya hüquqlarını

məhdudlaşdırmamalıdır. Lobbiçilik məlumatları insanlara açıq olmalıdır. Çünki, məhz aşkarlıq korrupsiya məqsədləri üçün geniş istifadə olunan kölgə lobbiçiliyi formalarını aradan qaldıra, dövlət və ictimaiyyət tərəfindən lobbiçilik əməliyyatlarına nəzarət etmək üçün bir fürsət təmin edə bilər.

## 1.2. ABŞ-da erməni diasporu və lobbisinin yaranması tarixi, məqsəd və vəzifələri

Ermənilərin keçdiyi inkişaf yolunu və onların diasporlarının formalaşma mərhələlərini rahat şəkildə öyrənmək mümkün deyil. Çünki onların keçdiyi tarixi inkişaf yolu olduqca çətin və mübahisəli məsələlərlə zəngindir. Tarixi mənbələri dəqiq şəkildə araşdırsaq erməni diasporu haqqında olan məlumatların həqiqətə tam şəkildə uyğun olmadığını görərik. Bu əslində onunla əlaqəlidir ki, erməni etnik qrupu eyni yerdə məskunlaşmamış, daim bir yerdən başqa yerlərə köç halında həyatlarını sürdürmüşlər (31,səh 17).

Tarixi mənbələri araşdırsaq bizə məlumdur ki, ermənilər haqqında əlimizdə olan məlumatlar erməni tarixçiləri tərəfindən qeyd edilmişdir. Bu da ondan irəli gəlir ki, tarixi köklər haqqında tam dəqiq məlumat əldə etməyə imkan verməmişdir və günümüzə gəlib çatan məlumatlar təhrif olunmuş formadadır. Tarixi sənədlərdə erməni tarixçiləri özləri haqqında məlumat verərkən "ən qədim və sivil xalq" və "dənizdən-dənizə uzanan böyük ərazilərə" sahib olduqları haqqında məlumat verilmişdir. Həmçinin ermənilər tərəfindən toplanmış tarixi sənədlərdə, onların köçəri həyat yaşamasına səbəb olan türklərin, ərəblərin və azərilərin adları çəkilir və tez tez adı çəkilən xalqların onların mövcud olan "Böyük Ermənistan" adlı ərazilərinə etdikləri basqınlar və hücumlar göstərilmişdir. Tarixi sənədlərə də nəzər saldıqda aydın şəkildə onu görmək mümkündür ki, ermənilər zaman keçdikcə ayrı-ayrı ərazilərə səpələnmiş və onlar müstəqil dövlət formasında deyil knyazlıq formasında yaşamış və daha sonra diasporun meydana gəlməsi prosesi sürətlənmişdir.

Erməni və yəhudi diasporunun oxşar cəhəti ondan ibarətdir ki, onlar tarixi torpaqlara və eyni zamanda müstəqil dövlət formasına heç bir zaman sahib olmamışlar. Ancaq ermənilərdə tarixi səbəblərdən yaranan ümummilli «nevroz» vardır. Yəhudilərdə isə belə nevroz yoxdur. Onlara nevrozdan qaçmağa dinləri kömək etmişdir (38, səh 17).

Ermənilərə yaxın xalq olaraq göstərilən digər bir xalq yunan xalqıdır. İtaliyanın baş naziri Françesko Nitti bunu öz çıxışlarında dəfələrlə qeyd etmişdir. Nitti öz çıxışlarında dəfələrlə erməni və yunanları yalançı, qəddar və başqa xalqlar hesabına yaşayan etnik qrup kimi xarakterizə edirdi.Müasir günümüzdə də yunan xalqı və erməni xalqı arasında olan bənzərlik qaçmazdır. Baş verən hadisələrdə yunan və erməni xalqının eyni mövqedən və yaxın düşüncə nöqtəsindən çıxış etdiyi danılmaz bir faktdır. Eyni zamanda Nitti öz çıxışlarında dəfələrlə qeyd etmişdir ki, yunan və erməni xalqından böyük dövlətlər öz məqsədlərini həyata keçirmək üçün yalnız istifadə etmişlər və həmin xalqlar arada sadəcə vasitəçi rolunu oynamışdır.

Eyni zamanda ingilis Lordlar palatasının üzvü Mark Sayks 1915-ci ildə Londonda nəşr olunmuş "Xəlifənin sonrakı irsi" adlı kitabında erməni xalqını öz əqidəsi olmayan, vasitəçi ölkələr hesabına yaşayan və yalnız siyasi cinayətlər törətməkdən və başqa millətlərə ziyan vurmaqdan həzz alan mundar etnik qrup kimi qələmə vermişdir.

Din lobbiçilik fəaliyyətinin inkişafında mühüm rol oynayır. Bizim eramızın IV əsrində erməni millәti xristianlığı qəbul etmişdir və bunun nəticəsidir ki lobbiçilik fəaliyyətinin genişlənməsində əsaslı dəyişiklik olunmasına səbəb olmuşdur. Kilsə bu gün də erməni diasporu üçün önəmli xarakter daşımaqla yanaşı, onları yönəldir və onlara daim rəhbərlik edir. Həmən dövrə uyğun olaraq bunu deyə bilərik ki, kilsənin fəaliyyəti o qədər güclü idi ki, hətta diplomatik danışıqlar zamanı kilsənin razılığı əhəmiyyətli rol oynayırdı.

Hələ Bizans dövründən ətraf regionlara səpələnən ermənilər iqtisadi cəhətdən güclü olan xristian dövlətlərində diaspor halında yaşayırdılar. VII əsrdən yaranan İslam dini zamanla Zaqafqaziyada da güclənməyə başladı. Şimali Qafqaz və Azərbaycandan fərqli olaraq İslam dinini qəbul etməyən erməni millətçiləri onlara məxsus riyakarlıq və

ikibaşlı siyasət yeritmək sayəsində islamlaşma siyasətindən canlarını qurtara bilmişlər. Demək olar ki, «iki dünya» arasında (İslam və Xaçpərəst) yaşayan erməni diasporu bu iki dini qarşı-qarşıya qoymağa çalışmışlar. Həmən dövürdə ermənilər dağınıq halda idi və onlara ən çox Bizans ərazisində rast gəlmək mümkün idi.

XIX əsrin əvvəllərindən başlayaraq ermənilər daha çox Amerikaya mühacirət etməyə başlamışlar. Xüsusilə Amerikanın iri şəhərlərində yerləşən erməni diasporları burada özlərinin bir neçə icma və birliklərinin yaratmışlar. Qeyd etmək lazımdır ki Amerikada ermənilər üçün çox yaxşı şərait yaradılmışdı və ermənilər bu şəraitdən maksimum dərəcədə istifadə etməyi bacarırdılar. Amerikada özünə müsbət imic yaradan yəhudi diasporlarından sonra erməni diasporları da bu sahədə ciddi tədbirlər görmüş və buna nail olmağa qadir olmuşlar.

ABŞ-dakı erməni diasporu siyasi cəhətdən çox fəaldırlar. ABŞ ermənilərinin əksəriyyəti Respublikaçılar Partiyasının üzvləri və tərəfdarlarıdırlar. Bu özünü ölkədə gedən seçkilər zamanı daha açıq şəkildə nəzərə çarpır. Amerikada seçkilər zamanı erməni lobbisi siyasi manevrlardan ciddi şəkildə istifadə edirlər və Respublikaçılar Partiyasının üzvlüyündə iştirak edirlər və səs vermədə aktiv şəkildə öz fəaliyyətlərini göstərirdilər (35, səh.5). ABŞ-da erməni diasporu iki əsas istiqamətdə fəaliyyət göstərir:

1. Erməni mədəniyyətini qorumaq və inkişaf etdirmək, ABŞ-da mühüm siyasi-iqtisadi mövqe qazanmaq.
2. Türkçülük əleyhinə mübarizə aparmaq, Türkiyə ilə ABŞ-m münasibətlərini pozmaq.

1973-85- ci illər arası erməni terrorunun gücləndiyi bir dövrdə dünyanın müxtəlif ölkələrində olan erməni diasporları "Dünya erməni konqresləri "adlanan 1979-cu il Paris, 1983-cü il Lozanna və 1985-ci ildə Sevr şəhərlərində görüşlər keçirmişlər.Sevr görüşündə rahib Cames Karnuzyanın təklifi ilə " ümummili erməni konustitusiyası " qəbul edilmişdir.Başdan ayağa xülyalarla dolu olan bu konustitusiyanm əsas müddəaları aşağıdakı kimidir:

1. Dağınıq halda olan ermənilərin birləşdirilməsi

2. Konqreslərin qərarlarını dünyada tanıtmaq
3. Türk işğalı altında olan erməni torpaqlarının geri alınması
4. ASALA terror təşkilatının fəaliyyətini yüksək qiymətləndirmək və hər tərəfli maliyyə yardımı ilə təmin etmək;
5. Rusiya ilə əlaqləri daimi şəkildə genişləndirmək və Sovet Birliyində olduğu dövrdə ermənilərin birliyinə köməklik göstərdiyinə görə Rusiyaya özünü borclu hiss etmək;
6. Ermənilərin lobbiçiliyinin fəaliyyətini dünya ölkələri arasında yaymaq və s

ABŞ-dakı erməni diasporunun 100-dən çox milyoneri var. Bunlara misal olaraq yazıçı Vilyam Saroyan, Kaliforniya qubernatoru olmuş Corc Dükmacyan, Kirk Kirkoryan və s. göstərmək olar. Hazırda ABŞ-da fəaliyyət göstərən 18 erməni gündüz məktəbi, 30-dan artıq dövrü mətbuatı (bunlara misal olaraq «Hayrenik» («Vətən») «Armenian Uikii», «Asbarez», «Ararat» və s. göstərmək olar) fəaliyyət göstərir. Bunlarla yanaşı 4 elmi tədqiqat mərkəzi, 400-ə yaxın erməni təşkilatlatı, bir neçə kilsəsi və Sosial Demokrat «Hinçak» Partiyası, Erməni Demokratik Liberal Partiyası, Erməni İnqilab Partiyası və s. partiyaları fəaliyyət göstərir və ölkədəki ictimai-siyasi vəziyyətə təcir edə bilirlər. Daha çox aşağıdakı təşkilatlar sırf diaspor ilə əlaqədar olan lobbi fəaliyyəti ilə məşğul olurlar: "Ermənilərin Amerika İcması" Diaspor ilə sıx əlaqə yaradaraq ölkədə təbliğat işilə məşğul olur. Amerikada fəaliyyət göstərən ermənilərin lobbiçilik fəaliyyəti KİV vasitəsilə daha çox yayılır və ermənilər bu siyasətdən güclü şəkildə istifadə etməyi bacarırlar. Bu təşkilatın 25 ölkədə 45 nümayəndiliyi vardır. "Erməni Milli Cəmiyyəti" Vaşinqtonda yerləşir. Ölkə daxilində ennəni diasporuna müsbət imic qazandırmaqdan ötəri lobbiçiliklə məşğul olur. "Ermənilərin Milli Assambleyası" - birbaşa ölkə Konqresində lobbiçiliklə məşğul olmaqla, Amerikanın xarici siyasətinə təzyiq göstərərək Ermənistan və ABŞ arasında münasibətlərin yaxşılaşdırılmasına çalışırlar. "Amerikada Erməni Missioner Assosiasiyası" Bilavasitə erməni kilsəsinin rəhbərliyi altında: «xristian erməni qardaş və bacılar» - devizi altında ABŞ və dünyanın xristian ölkələrinin Ermənistan yardımını təşkil edir və diaspora «acı

gələn xristianlar» - imicini qazandırmağa çalışırlar. “Erməni Film Fondu” kinobiznesində fəaliyyət göstərirlər. Mərkəzi Hollivuddadır. Bu sahədə müəyyən qədər nəzərə çarpacaq iz qoyan erməni diasporu məşhur kino ulduz və kino biznes sahəsində çalışanlarla erməni diasporu arasında əlaqə yaradırlar. “Erməni Kültür Assosiasiyası” Amerikada erməni mədəniyyətini təbliğ edir və inkişaf etdirərək yerli əhali arasında özlərinə müsbət fikir qazanmaqla məşğul olur. Erməni sənətçilərinin ABŞ-da çıxışlarını himayə edir. Bundan başqa Amerikada erməni diasporunun “Yaxın Şərq Kültür Klubu”, “Erməni Assosiasiyası” və s.də fəaliyyət göstərir. Ancaq ABŞ-dakı erməni diaspor təşkilatları arasında da həmrəylik yoxdur. Erməni Assambleyası Ter-Petrosyan və onun mövqeyini müdafiə edirsə, erməni Milli Cəmiyyəti daşnakları müdafiə edir. Eyni zamanda diaspor ilə Ermənistan rəhbərliyi arasında sərhədlər dəqiq müəyyənləşməyib. Diasporun maraqları çox şeydə Amerikanın siyasi elitasının maraqlarıyla üst-üstə düşür. Lakin Ermənistanın siyasət və dövlət maraqları ABŞ və s. ölkələrin diasporlarına tamam ziddir. Erməni diasporu öz fəaliyyətini ABŞ-ın dövlət maraqlarına uyğun aparır. Ermənistan isə öz hərəkətləriylə bu maraqların əksinə çıxış edir (38, səh. 14).

Bütün dünya tərəfindən sıxışdırılmasına və təzyiqlərə məruz qalmasına baxmayaraq erməni lobbisi çox güclü birliyə sahib olmuşdur və bütün dünyaya öz səsini çatdırmağa nail olmuşdur. Ancaq bütün bu didişmələrə və daxili çəkişmələrə baxmayaraq, ermənilər ümumi məqsədlər naminə daima həmrəydirlər. Ermənistanın diasporla olan ziddiyyətlərinə baxmayaraq Ermənistan Xarici İşlər Nazirliyinin diaspor ilə əlaqələr departamenti fəaliyyət göstərir. 1999-cu ilin sentyabr ayında İrəvanda Dünya Ermənilərinin Konfransı keçirilib və burada erməni diasporu qarşısında dünya problemləri, dövlət ilə xaricədə yaşayan həmvətənlər arasında əlaqələrin genişlənməsini müdafiə edib. Onlar aşağıdakı məsələləri müzakirə edib gələcəkdə atacaqları addımları müəyyənləşdiriblər:

1. İnformasiya mübadiləsi
2. İqtisadi əməkdaşlıq
3. Mədəni tədbirlər

4. Qarabağ məsələsi

Son illər ərzində erməni diasporu ABŞ-da daha da fəallaşmış və erməni məsələləri üzrə işçi qrupu Nümayəndələr Palatasının ən səmərəli etnik diasporlarından birinə çevrilmişlər. Erməni diasporuna xidmət edən lobbi Konqresin 1996-98-ci il tərkibində 72 üzv və 1999-2000-ci il tərkibində bundan yalnız bir qədər az üzv toplanmışdır (15; səh 25). Lakin son zamanlar erməni diasporu Rusiya və İrandan daha da asılı vəziyyətə düşmüşdür. Bu da Amerikanın xarici siyasətinə uyğun gəlmir. Amerika daxilində yaşayan ermənilərin güclü nüfuzu və onların lobbi fəaliyyəti ABŞ-ın onların xarici siyasətinə qarışmağa imkan vermir və Ancaq, ölkə daxilində ermənilərin nüfuzu və milyonları Amerika hökumətinə, tam imkan yaratmır ki, onlarla əlaqəni kəsərək Ermənistanın xarici siyasət kursunun hansı istiqamətdə yönələcəyini bilsin. Erməni diasporu isə hələ də fəaliyyətini genişləndirir və digər güclü lobbilərlə əlaqə yaradaraq Türkiyə və Azərbaycan əleyhinə təbliğat müharibəsində hələlik qələbə qazanmaqdadırlar (34, səh 41-42).

Amerika Erməni Milli Komitəsi (ANCA) ən böyük və ən nüfuzlu erməni Amerika yerli siyasi təşkilatıdır. Birləşmiş Ştatlarda ofislər, şöbələr və tərəfdarlar şəbəkəsi var və bütün dünyada əlaqəli təşkilatlarla koordinasiyada işləyən ANCA geniş spektrli məsələlər üzrə Amerika erməni icmasının narahatlığını “fəal şəkildə” müdafiə edir.

ANCA-nın əsas məqsədləri bunlardır:

- Vahid və müstəqil Ermənistanı dəstəkləmək üçün ictimai məlumatlılığı gücləndirmək;
- Erməni Amerika icmasını maraqlandıran məsələlərdə ABŞ siyasətinə təsir etmək və istiqamətləndirmək;
- İcma və onların seçilmiş məmurları arasında əlaqə rolunu oynayarkən, ictimai siyasət məsələlərinə dair kollektiv erməni Amerika nöqteyi-nəzərini təmsil etmək.

Amerika Erməni Milli Komitəsi bir sıra sahələrdə fəaldır və müxtəlif siyasi fəaliyyətlərlə məşğul olur.

“Amerika Erməni Milli Komitəsi” adlı diaspora onilliklər ərzində Ermənistanın hərbi cinayətlərini, işğalını və Azərbaycan torpaqlarının etnik təmizlənməsini dəstəkləyib və təbliğ edib və Qarabağda sülhün əleyhinə çıxış edib. Reallıqdan uzaq olaraq, daşnak radikal və ekspansionist qruplaşmasının lobbiçi qolu və erməni diasporunun mənfur klubu olan “Amerika Erməni Milli Komitəsi” Ermənistandakı ermənilərin yüksək templə ölkəni tərk etdiyi bir vaxtda Türkiyə və Azərbaycana qarşı əsassız torpaq iddiaları ilə çıxış etməkdə davam edib. Diaspor təşkilatı Ermənistanda ermənilərə az əhəmiyyət verir, Türkiyə və Azərbaycana nifrət edib, Türkiyə və Azərbaycan əleyhinə dezinformasiya kampaniyalarında fəal iştirak edir.“Amerika Erməni Milli Cəmiyyəti” yanlış və təhlükəli şəkildə Ermənistan-Azərbaycan münaqişəsini xristian-müsəlman münaqişəsi kimi qələmə verir.

Onu da vurğulamaq lazımdır ki, ANCA Hitlerə və Holokosta rəğbət bəsləyən daşnakların qolu və lobbi təşkilatıdır. 2020-ci ilin may ayında ABŞ Konqresinin arxivində yuxarıda qeyd olunanları ifşa edən tarixi sənəd üzə çıxıb. Bu nəticə Azərbaycanın Los Ancelesdəki Baş Konsulluğunun apardığı araşdırmanın nəticəsində aşkar olunmuşdu.

Konqres qeydlərində həmçinin məşhur erməni nasist əməkdaşı Qaregin Njdeni “Tseqakronizm” (irqə ibadət) adlı erməni irqi dininin banisi kimi xatırladır, bu din əsasən gəncləri hədəfə alır və “Hitler gəncliyindən” nümunə götürür. Njdenin çıxışlarında Hitlerin irqi ideyalarına rəğbət bəslədiyi bildirilir. Qeyd edilirdi ki, Njde və onun erməni daşnak yoldaşları irqçi fikirləri ABŞ-da doğulmuş gənc ermənilər arasında yayırlar.Maraqlıdır ki, nasist əməkdaşı Qaregin Njde bu gün Ermənistanda milli qəhrəman sayılır. 2016-cı ildə Ermənistan hökuməti ölkənin paytaxtı İrəvanın mərkəzində onun heykəlini açdı.

Hitlerə rəğbət bəsləyən və Holokostu dəstəkləyən daşnaklar hələ də ABŞ-da fəaliyyət göstərirlər. Onların lobbiçi qolu olan “Amerika Erməni Milli Komitəsi” bu gün ABŞ Konqresində əsas erməni lobbi təşkilatıdır. ANCA nasistyönlü keçmişlərinə görə heç vaxt üzr istəməyib.

## 1.3. ABŞ-da Azərbaycan diasporu və lobbisinin yaranması tarixi, məqsəd və vəzifələri

Xalqların tarixi inkişafının səviyyəsi, xüsusiyyətləri və istiqamətləri ilə sıx bağlı olan mühacirət prosesi, təbii ki, azərbaycanlılardan da yan keçməyib. Azərbaycanlıların mühacir etmə prosesi uzun müddət davam etmişdir və XX əsrin və bugunumuzun böyük bir qismini əhatə etməkdədir. Heç də təsadüfi deyil ki, Azərbaycan xalqı özünün say-demoqrafik göstəriciləri baxımından həqiqətən də böyük diaspora malik xalq hesab edilə bilər - bu xalqın nümayəndələrindən hər 5 nəfərdən biri məhz mühacirətdə yaşayır və 10 milyonluq Azərbaycan diasporunu təşkil edir.

Azərbaycan diasporunun yaranmasında və formalaşmasında üç müxtəlif ölkənin vətəndaşı olan azərbaycanlılar - Şimali Azərbaycandan, Cənubi Azərbaycandan (İran) və Türkiyədən olan azərbaycanlı mühacir qrupları iştirak edirlər. Diasporumuz hazırda üçamilli bir sistemi kimi mövcuddur. Bu elementlər həmin sistemdə müəyyən mənada bərabər şəkildə və yanaşı mövcud olsalar da onların keyfiyyət göstəriciləri də, diaspor olaraq təsiretmə gücü, potensialı da həmin elementlərin sözügedən sistemdəki xüsusi rolu, çəkisi və yeri də fərqli təsir bağışlayır. Azərbaycandan köçüb gedən insanların əsas birləşdiyi məkanda özünü büruzə verən ölkələr öz mədəniyyətlərinə və digər xüsusiyyətlərinə görə bir-birlərindən kəskin şəkildə fərqlənirdi. Bütün bunlar isə azərbaycanlıların nəinki mühacirət prosesinin özünə, eləcə də bugünkü azərbaycan diasporunun bütün cəhətlərinə, xarakterik xüsusiyyətlərinə, onun keyfiyyətinə, məzmununa öz ciddi və dəyişdirici təsirlərini buraxmışdır (2, səh 10).

Diasporumuzun birinci cinahını dünyanın ayrı-ayrı ölkə və regionlarına Şimali Azərbaycandan səpələnən şimali azərbaycanlı mühacir qrupları təşkil edir. Sayca müəyyən bir qüvvəni təşkil edən şimali azərbaycanlılar tam nizamsız və pərakəndə şəkildə Qərb ölkələrinə səpələnmiş və bir çox səbəblər ucbatından demək olar ki, tamamilə qapalı bir həyat yaşamaqla, cüzi bir azlıq istisna olmaqla əksəriyyəti passiv mövqedə durmuşdur. 40-50-ci illərdən bəri Avropa və Amerika ölkələrində yaşayan

həmin insanlar, mühacir dairələri özlərindən sonra azərbaycanlılar icmasını formalaşdıra bilmədilər. Yəni şimali azərbaycanlı mühacir qrupları diasporun bir nəslini, təbəqəsinin etno-sosial funksiyasını yerinə yetirməli olan xalis azərbaycanlı ailələri strukturundan məhrum idilər (2, səh 12).

Şimali azərbaycanlıların Qərbə axınının növbəti dalğası 80- ci illərin sonu, 90-cı illərin əvvəllərini əhatə edir. Bu da 30- 40-cı illər dövrü mühacirətindən sonra ikinci böyük mərhələsini təşkil edir. Baş verən bu proses öz həcminə və əhatə dairəsinə görə çox əhatəli olmasada müasir dövrdə də davam etməkdədir. Azərbaycan diasporunun ikinci on böyük və mühüm qanadını Qərbdə hələ XX əsrin əvvəllərindən etibarən 5 böyük dalğa ilə səpələnən cənublu soydaşlarımız təşkil edir. Bu dalğalar, onların səbəbləri isə aşağıdakı kimi müəyyən edilir.

1. 20-ci illər- siyasi mühacirət dövrü.
2. 20-40-ci illər - sosial iqtisadi xarakterli mühacirət
3. 50-ci illər - mürtəce hərbi diktatura rejiminə etiraz əlamətinə əsaslanan siyasi dalğa
4. 60-70-ci illər- təhsil və təkmilləşmə məqsədi ilə bağlı mühacirət
5. 80-ci ilərdən bəri ta bu günə qədər - İran inqilabından sonra başlanan rejimə siyasi etirazına total şəkil alaraq siyasi mühacir dalğalarının güclənməsinə səbəb olmuşdur (41, səh.5).

Azərbaycanın Cənubi hissəsində mövcud olan diaspor fəaliyyəti öz istiqamətinə görə əsaslı dərəcə də fərqlənir və xüsusi bir mexanizm kəsb edir. Bu onun müztəlifliyini çoxçalarlı və çoxaspektli olmasında göstərir. Cənubi Azərbaycan diasporu öz mahiyyətinə görə həddindən artıq çətin və idarə olunması çətin təsir bağışlayır. Bu təbəqənin daxilindəki münasibət və baxışlar o qədər də problemsiz deyildir. Burada açıq şəkildə toqquşan iqtisadi maraqlar, ideoloji-siyasi baxışlar və fikir cərəyanları sistemləri, Azərbaycan dövləti faktoruna çoxmənalı və ziddiyyətli münasibət əlamətləri vardır. Cənubi Azərbaycan diasporu tamamilə öz mahiyyətinə görə siyasi xarakter kəsb edir.

Burada həddindən artıq problemli və ziddiyyətli vəziyyətlərə daha çox rast gəlinir və problemlər aradan qaldırılması istiqamətində əsaslı tədbirlər görülür.

Diasporumuzun üçüncü mühüm cinahı Qərb ölkələrinə Türkiyədən mühacirət edərək müvəqqəti olaraq məskunlaşan, lakin hələ də geri qayıtmaq haqqında düşünməyən Türkiyə azərbaycanlılarından təşəkkül tapmışdır. Bu qrupdan olan azərbaycanlıları mühacirətə başlamasının konkret tarixi vardır - onların Qərbə kütləvi axını 50-ci illərin sonu - 60-cı illərin əvvəllərində başlamış və bu proses ta 70-ci illərin ortalarına qədər yalnız mərkəz xətt üzrə davam və inkişaf etmişdir. Türkiyəli azərbaycanlılarının mühacirəti icmalaşdırılmış, razılaşdırılmış, məqsədli mühacirət idi. Ancaq, Azərbaycan diasporunun bu cinahında məsələni mürəkkəbləşdirən iki mühüm məqam da nəzərdən qaçırılmamalıdır. Birinci - mühacirətdəki Türkiyə azərbaycanlıları azsavadlı və nisbətən də avam olan kütlədir. İkincisi isə onların aparıcı faktoru türkiyəçilik kompleksidir (2; səh.15). Diasporumuzun yayılma coğrafiyası bütövlükdə məlum olsa da, onun dəqiq sayı barədə konkret rəqəm söyləmək bu gün əslində mümkün deyildir. Çünki nə bizdə, nə də xaricdə belə bir hesablama işi indiyə qədər aparılmayıb və diasporumuzun statistik-demoqrafik mənzərəsi yaradılmayıb. Bütün qeyrimüəyyənlik hallarına baxmayaraq bütün bilavasitə mühacirətdə yaşayan azərbaycanlıların ümumi sayının təxminən 10 mln. nəfər olmasını söyləmək mümkündür (43, səh.4).

Diasporumuzun Qərbdən başqa Yaxın və Orta Şərq, Aralıq dənizi hövzəsi və Şərqi Avropa regionlarına, hətta Hind-Çin, eləcə də Şimali Afrika ölkələrinə mühacirəti müşahidə edilməkdədir. Konkret Kanada, Almaniya, Amerika, Asiya ölkələri və s. dövlətlərdə yerləşmişdir.

Azərbaycan diasporunun çoxsaylı olduğu dövlətlər içərisində Amerika xüsusi yer tutur. Dünyanın əsas güc mənbəyi olan ABŞ dünya ölkələri içərisində öz liderliyini qoruyub saxlayır və oraya gələn mühacirlərin sayına görə də əsaslı şəkildə fərqlənir. Azərbaycanlıların ABŞ-a mühacirəti XX əsrin əvvəllərindən başlamış və müasir dövrə qədər davam edir və güman ki, davam edəcəkdir. Son məlumatlara görə ABŞ-da yaşayan azərbaycanlıların sayı 3 milyona yaxındır və kompakt halda Kaliforniya, Nyu-

Cersi, Nyu-York, Miçiqan, Los-Ancclcs və Vaşinqtonda yerləşərək diaspor halında fəaliyyət göstərirlər. Azərbayan diasporunun fəaliyyət sferası özünü daha çox iqtisadiyyat sahəsində büruzə verir və bu onun siyasi sahədə nisbətən zəif olduğuna işarə edir.

1. Azərbaycan diasporu ABŞ-da azsaylı və gəncdir.
2. Diasporumuz daxili konsoldidasiya mərhələsindədir və eyni zamanda diasporumuzun üzvlərinin Amerika ictimaiyyətinə adaptasiya və inteqrasiyası gedir.
3. Azərbaycan diasporu öz inkişafına görə digər lobbilərdən fərqlənir və öz mövqeyini qoruyub saxlayır.
4. Azərbaycan diasporunun tərkibi bir dövlətli deyil, yəni üstünlüyü türkiyəli və cənublu azərilər təşkil edir.
5. Bu üç diaspor qanadı arasında ümumi fikir yoxdur və onlar çox məsələdə ümumi dil tapa bilmirlər (45, səh. 56- 57).

Müasir dövrdə Azərbaycan diasporuna qarşı mövqe kifayət qədər yaxşılaşmış və bu ABŞ ictimaiyyətində öz əksini tapmışdır. ABŞ-ın bu münasibətinə ilk olaraq pozitiv əlaqələr daxildir.

1) Ağ eev qarşısına qoyduğu məqsədlərə çatması ;

2) Azərbaycanın enerji resurslarından maksimum dərəcədə istifadə edilməsi və onun əlverişli coğrafi mövqedə yerləşməsi

3) Dünyanın mühüm yeri olan Asiya-Sakit okean regionununda Azərbaycanın rolunun artması ABŞ-da bir neçə Azərbaycan diaspor cəmiyyətləri də fəaliyyət göstərir. Bu cəmiyyətlər əsasən mədəni, elmi-ictimai işlərlə məşğul olurlar.

1. “Azərbaycan Cəmiyyəti” - Los Ancelesdə yerləşir, Mədəni və maarifçilik işi ilə məşqul olur
2. “Azərbaycan Evi”- 1988-ci ildə Los-Ancclesdə yaradılmışdır. İctimai təşkilat kimi fəaliyyət göstərir

3. “Türk-Azərbaycan Qrupu” -Los-Ancelesdə yaradılıb. Siyasi hadisələrə fəal münasibət bəsləyir.
4. “Azərbaycan Kültür Cəmiyyəti” -Los-Ancelesdə yaradılıb. Amerikada erməni təcavüzkarlığını mətbuatda işıqlanmasına imkan yaradaraq Azərbaycan barədə kitablar nəşr etdirir.
5. “Azərbaycan Mədəniyyət Ocağı” -1989-cu ildə Vaşinqtonda yaradılmışdır. Azərbaycan mədəniyyətini tarixini və incəsənətini amerikalılara təbliğ edir.
6. “Azərbaycan Cəmiyyəti” -ABŞ-da yaradılan ilk Azərbaycan mədəniyyət ocağıdır. Müsəlman diaspor cəmiyyətləri ilə tez-tez əlaqə yaradır.

Göründüyü kimi adları sadalanan bütün bu təşkilat və cəmiyyətlər siyasi işlə demək olar ki, məşğul olmurlar. Bunun da bir çox səbəbləri vardır. Ən başlıcası isə bütün diasporlarda nəzərə çarpan icma daxili konfliktlərlə bağlıdır. Onlar isə Azərbaycan diasporunda əsasən iki formada - mənəvi-psixoloji atmosferin ziddiyyətli olması, şəxsiyyətlər və qruplararası münasibətlərin problem xarakter daşıması ideoloji-siyasi fikir ayrılıqlarının ön planda dayanması şəklində təzahür edir. Liderlik uğrunda kəskin rəqabət hallarının üzə çıxıb ümumi işə ziyan vurması da elə buradan irəli gəlir (48, səh 3).

2007-ci ildə yaradılmış USAN Azərbaycan-Amerika seçiciləri tərəfindən və onlar üçün yaradılmış amerikan-azərbaycanlıların ilk və ən böyük kütləvi təbliğat və seçicilərin maarifləndirilməsi şəbəkəsidir. USAN-ın missiyası Azərbaycanlı-Amerikalıların və digər Türk-Amerikalıların, habelə onların birliklərinin, təşkilatlarının, şuralarının, konfranslarının və digər rəsmi, yarı-formal və qeyri-rəsmi qrupların federal, əyalət və yerli səviyyələrdə siyasi fəallığını və səylərini asanlaşdırmaqdır.

ABŞ Azərbaycanlıları Şəbəkəsi (USAN) qeyri-kommersiya, qeyri-partizan təşkilat kimi qeydiyyatdan keçib və azərbaycanlı amerikalıların, digər türkdillilərin siyasi səylərini və fəallığını asanlaşdırır. Kütləvi qruplar tərəfindən yaradılan USAN amerikalı azərbaycanlıları birləşdirən ilk ümummilli təşkilatdır.

USAN-in bir sıra məqsəqləri vardır:

1. ABŞ-ın bütün siyasi spektrində Azərbaycan-Amerika seçicilərinin maraqlarını vurğulamaq;
2. Amerikalı azərbaycanlıların kütləvi fəallığı üçün istifadəsi asan və intuitiv onlayn mexanizm təqdim edmək;
3. Azərbaycanlı amerikalıları yerli, ştat və federal səviyyədə ABŞ siyasətində fəal iştirak etməyə təşviq edmək;
4. Seçicilərin qeydiyyatı və səsvermə kampaniyalarında maarifləndirmək, təşviq edmək və kömək edmək;
5. Azərbaycan-Amerika diasporu ilə yerli, əyalət və milli təşkilatlar, cəmiyyətlər və tərəfdaşlar arasında daha güclü əlaqə və daha böyük anlaşma üçün katalizator rolunu oynamaq.

USAN Azərbaycan üçün lobbiçilik sahəsində bir sıra nəticələri olmuşdur. Belə ki, Xocalı soyqırımının dünyada ilk  dəfə parlament tərəfindən tanınmasını üçün fəaliyyət göstərmiş və nəticədə məqsədinə çatmışdı - Texas ştatında Xocalı soyqırımının tanınmasına nail olmuşdu. Səs çoxluğu ilə Texas ştatının Nümayəndələr Palatasının üzvləri Nümayəndə Cim Mörfinin müəllifi olduğu Xocalı qətliamını tanıyıb və yad etmişdilər. Ümumilikdə, Birləşmiş Ştatlarda altı parlament qətnaməsinin qəbul olmasına tövfə vermişdilər.

ABŞ və Avropada Azərbaycanın lobbiçilik fəaliyyətində olan əksiklər özünü açıq aydın şəkildə büruzə verirdi. ABŞ və Avropada yaşayan azəri türklərinin pərakəndiliyi iki dəfə keçirilən Dünya Azərbaycanlılarının qurultayında da özünü göstərmişdir.Birinci qurultayda mübahisə salonda İran bayrağının olub-olmaması üstündə,ikinci qurultayda isə qarşıdurma nəticəsində baş vermişdir.Lakin bu pərakəndiliyə baxmayaraq güclü azəri diasporunun formalaşmasına geniş imkanlar vardır. Kolumbiya universitetinin professoru azərbaycanpərəst Tadeuş Svyatçovski, Corcstaun universitetinin professoru Zöhrab Sübhani və s. ABŞ-da Azərbaycan diasporunun və lobbisinin formalaşması üçün

geniş imkanlar olduğunu bildirmişlər. Əgər Azərbaycan diasporunun və lobbisi güclənsə müvafiq haqq ödəməklə istənilən konqresmeni ələ ala və istənilən qərarı parlament də qəbul elətdirə bilər.

Fikrimizcə, diaspor siyasətində əsas götürülməsi vacib olan həmin birləşdirici faktorlar aşağıdakı kimi olmalıdır;

1) Vahid milli mədəniyyət faktoru
2) Müstəqil Azərbaycan dövlətçilik və milli-siyasi azlıq faktoru
3) Tarix, dil, kültür və soykökü birliyi faktoru
4) Azərbaycan dövlətinin mənəvi himayədarlığına daimi ehtiyac faktoru və s. (49, səh.4).

Müstəqil Azərbaycan respublikasında baş verən bütün proseslər Azərbaycan diasporuna ciddi təcir göstərir. Azərbaycanda baş verən hər hansı dəyişiklik və hadisə onların xarakterindən asılı olmayaraq diasporumuzun ictimai-siyasi fəallığında olduğu kimi əks olunur. Azərbaycan diasporu Azərbaycandakı mövcud atmosferdən, proseslərdən və hadisələrdən əslində məhz asılılıq vəziyyətindədir və respublikamızdakı proseslərə adekvat şəkildə fəallıq göstərir. Azərbaycan diasporu kifayət qədər nəhəng bir qüvvədir, onun Azərbaycan dövləti faktoruna doğru yönəldilməsi isə vacibdir (2, səh. 19).

Bundan başqa xüsusi ilə qeyd eləmək lazımdır ki, Azərbaycan lobbisinin inkişaf etməsində digər lobbilərində təsiri olmuşdur. Bunlardan ən əsası yəhudi və türk lobbisini misal göstərə bilərik. Yəhudi lobbisinin Azərbaycan lobbiçiliyənə dəstəyi ermənilərin Azərbaycan üzərində olan məqsədlərinin neytrallaşmasına şərait yaratdı və onların fəaliyyətinə ciddi şəkildə maneə oldu. Türk və yəhudi lobbisinin dəstəyi Azərbaycanın bu sahədə müəyyən uğurlar qazanmasına dəstək oldu. 2000-ci il sentyabrın 8-də ABŞ-da səfərdə olan prezident Heydər Əliyevin Amerikanın nüfuzlu yəhudi təşkilatlan, Yəhudi Komitəsi, Prezidentlər Konfransının, Yəhudi Konqresinin, Sovet Yəhudiləri Komitəsinin rəhbərləri ilə görüşü də Azərbaycan lobbisinin formalaşmasında və siyasi imicinin yüksəlməsində böyük əhəmiyyət kəsb etdi.

Artıq Azərbaycan diasporu özünün inkişaf dövrünü yaşayır. 2001-ci il, noyabr ayında Bakıda ümummilli lider Heydər Əliyevin iştirakı ilə keçirilmiş Ümumdünya azərbaycanlıların qurultayı bu sahədə görülmüş ən önəmli addımlardan biri idi. Qurultay zaman Heydər Əliyevin çıxışın da dünya ölkələrinə səpələnmiş soydaşlarımızın hüquqlarının müdafiəsinin, onların hər zaman həmrəy olmasını və lazım olduqda birləşmək cəhdlərinin vacibliyini xüsusi ilə qeyd etmişdir. Xaricdə yaşayan azərbaycanlıların həmrəyliyi Azərbaycan Respublikasının müstəqilliyinin ən əsas zəmini hesab olunur, bu onunla bağlı amildir ki, lazım olduqda bütün həqiqətləri dünya ölkələrinə çatdırmaq imkanına şərait yaradır. Azərbaycan xalqının birləşməsi istiqamətində görülmüş işlərdə əsas üstünlük I Dünya Azərbaycanlılarının Qurultayının keçirilməsi olmuşdur. Qurultay xaricdə yaşayan soydaşlarımızın ümumi məqsəd ətrafında birləşməsinə şərait yaratmışdır.

Xalqlar arasında gedən sürətli inteqrasiya prosesləri, diaspor və lobbi təşkilatlarının beynəlxalq siyasətdə artan rolu bu sahədə daha genişmiqyaslı fəaliyyət göstərilməsini tarixi zərurətə çevirib. Dünyanın 5 qitəsində məskunlaşan soydaşlarımızın siyasi, iqtisadi və sosial-mədəni fəaliyyəti yaşadıqları ölkələr, oradakı şərait və mənəvi dəyərlər kimi müxtəlifdir. Lakin problemlərə və çətiniklərə baxmayaraq, azərbaycanlılar hər zaman öz milli mənsubiyyətini, adət-ənənələrini, mənəvi-əxlaqi dəyərlərini qayğı ilə qoruyub-saxlamış, tarixi Vətənlə əlaqələrini itirməmişlər. Bu gün dünyanın müxtəlif ölkələrində diasporumuzun mövcudluğu da, məhz bu amillə bağlıdır. Azərbaycan Prezidenti İlham Əliyevin vurğuladığı kimi, müstəqil Azərbaycan dövlətinin mövcudluğu dünya azərbaycanlıları arasında milli birliyin daha da güclənməsi və həmvətənlərimizin təşkilatlanması üçün geniş imkanlar yaradır. Azərbaycan milləti daim ölkəmizdə baş verən yeniliklərə, eyni zamanda ölkədən kənarda yaşamaqlarına baxmayaraq bütün yeniliklərlə daim maraqlanmağa can atırlar. Bu köməyin səmərəli olması, məhz həmvətənlərimizin möhkəm birliyi, mütəşəkkilliyi və yaxşı təşkilatlanması sayəsində mümkündür

# II FƏSIL. BİRLƏŞMİŞ ŞTATLARDA AZƏRBAYCAN VƏ ERMƏNİ LOBBİLƏRİN FƏALİYYƏTİ

## 2.1. ABŞ Konqresində "Azadlığı Müdafiə Aktı" və ona 907-ci əlavənin (Kerri düzəlişi) qəbulu ilə bağlı lobbi fəaliyyəti.

Tarixi hadisələrin gedişi göstərir ki, bütün XX əsr boyu azərbaycanlılar üçün əsl tarixi fəlakətə çevrilmiş olan «erməni məsələsi» sonralar isə «Qarabağ problemi» zəngin sərvətə malik olan Qafqazda öz nüfuzunu itirmək istəməyən Rusiya imperiyasında siyasi hadisələrin gedişi ilə bilavasitə bağlı olmuşdur, imperiyanın parçalanma təhlükəsi yarandıqda və artdıqda bir qayda olaraq həmin problemlər də ortaya çıxır və və vəziyyət sabitləşdikdə o da arxa plana keçir. Uzun müddət hazırlanan köhnə «erməni məsələsi» 80-ci illərin ortalarından başqa adla, regiondakı böyük dövlət - Sovet İttifaqının dərin ictimai-siyasi böhrana düçar olduğu, onun tərkibində olan respublikalar müstəqil dövlətlərə çevrilmək üçün apardıqları mübarizədən qalib tərəf kimi ayrıldılar. Artıq təkzibedilməz faktlar var ki, SSRİ-də baş vermiş siyasi böhranın yaranmasında və daha da dərinləşməsində "Qarabağ problemi" əsas amillərdən biri olmuşdur (35, səh. 101-105).

Tarixdə olan məlumatlara əsasən Qarabağın ermənilərə məxsus olması haqqında mövcud olan fikirləri Abel Aqanbckyan tərəfindən irəli sürülmüşdür. 1987-ci ilin 2 noyabrında Fransadakı erməni diasporunun dəvətlə bura gələn Aqanbckyan Parisdə erməni institutunda diaspor qarşısında çıxış edərək "Qarabağın ermənilərə verilməsi arzusu"nu, irəli sürmüşdür. Bu fitnə erməni diasporu üçün bəhanə yaratmış və ümumdünya erməniləri Türkiyə ilə yanaşı Azərbaycana qarşı dünyada və xüsusi ilə ABŞ-da mübarizəni gücləndirmişlər. (77, səh. 296- 297). Erməni diasporu ABŞ-m daxili və xarici siyasətində mühüm rol oynamaqla yanaşı güclü təbliğat mexanizminə də malikdirlər. Olduqca geniş imkanlar diapazonuna malik ABŞ və dünya erməni diasporlarının anti-Azərbaycan fəaliyyəti göstərərək erməni mədəniyyətini qoruyub

inkişaf etdirməklə yanaşı ABŞ-da mühüm siyasi-iqtisadi mövqe qazanmağa çalışırlar (41, səh 384-385).

Qarabağ münaqişəsi başlanan zamandan erməni diasporunun bütün təşkilatları Azərbaycana qarşı təxribatçılıq əməlləri törətməyə başladılar. Bununla yanaşı Latın Amerikası, Yaxın Şərq və Orta Şərqdə və dünyanın müxtəlif bölgələrindəki erməni diasporu arasında ermənilərin «müdafiəsi» üçün pul, silah və digər hərbi ləvazimat toplanması və göndərilməsi təşkil olunur və bu günə qədər də davam edir. “Qarabağ problemi” ortaya çıxdığı andan erməni diasporu bu məsələni siyasi yolla həll etməyə və özünün Qarabağ torpağı ilə əlaqəsinin hüquqi cəhətdən sübut etməyə cəhd göstərirlər. Lakin özünün istər siyasi, istərsə də hüquqi dəlillərinin müasir beynəlxalq normalara uyğun gəlmədiyini gördükdə Ermənistan Azərbaycana qarşı açıq hərbi əməliyyatlara başladı və hazırdada təcavüz beynəlxalq hüquq normalarına uyğun olmayan vasitələrlə davam etməkdədir. Erməni diasporu və lobbisi isə dünyada güclü informasiya və təbliğat mexanizmi yaradaraq özlərini beynəlxalq ictimaiyyət qarşısında təcavüzə uğrayan dövlət imici yaratmağa çalışırlar (40, səh. 126).

“Qarabağ problemi” 1985-ci ildən SSRİ-də M. S. Qorbaçovun Sov. İKP MK-nın Baş katibi seçilməsindən sonra erməni diasporunun geniş səlahiyyətlərə malik olaraq fəaliyyət sahəsini genişləndirdikdən sonra gündəmə gətirilməyə başlandı.. Sov. İKP MK-nın siyasi bürosunun üzvü olan H. Əliyevin işdən götürülməsinin erməni diasporunun fəaliyyətinin nəticəsi olduğu təsdiqlənmişdir.

ABŞ da keçirilən prezident seçkiləri dövrünə təsadüf edirdi və erməni birləşmələri Respublikaçılar partiyasına dəstək durmağa çalışırdılar. Respublikaçıların seçkilərdə qələbə qazandıqdan sonra Corc Buş hökumətində erməni diasporunun fəallarından olan Murad Topolyan Maykl Dukakisin milli məsələlər üzrə müavini oldu. ABŞ-dakı erməni diasporunun rəhbəri Paryur Zorcyan prezident Corc Buşun ictimai müdafiəçisi təyin edildi.Bu təyin atlardan sonra daha da güclənən erməni diasporu,xüsusilə Kaliforniya valisi Corc Diikməcyan, yazıçı Vilyam Sarayan və digər 100-ə qədər siyasətçi və milyonerlər ABŞ hökumətindən tələb edirdilər ki, Dağlıq Qarabağ probleminə BMT

Təhlükəsizlik Şurasında baxılsın. Konqresmen Paşayan və digər erməni lobbistləri onların bu fikrini dəstəkləyərək Senat və Nümayəndələr Palatasında güclü lobbi yaratdılar. Amerikadakı erməni diasporunun rəhbəri Paryur Zorcyan Corc Buşun müdafiəçi olduqdan sonra bildirmişdir ki, Respublikaçılar Partiyasının qurultayında qəbul edilmiş proqramda Sovet İttifaqından öz müqəddəratını təyin etməyə çalışan xalqların müdafiə etməsi mümkündür. Bu isə erməni diasporu üçün geniş imkanlar yaradırdı.

Erməni diasporu Azərbaycan və ABŞ arasında olan anlaşılmaz və ziddiyyətlərdən məharətlə istifadə edərək 1992-ci ilin oktyabrın 24-də Konqresin 102-ci çağırış, 2-ci sesiyasının qəbul etdiyi və keçmiş SSRİ-nin Azərbaycandan savayı digər 12 respublikasına (Ermənistan, Ukrayna və s) demokratiyanın inkişafı və bazar iqtisadiyyatına keçid məqsədi ilə 460 milyon dollar həcmində yardım nəzərdə tutulan «Azadlığı Müdafiə Aktı» və ona 907-ci əlavənin qəbul edilməsi oldu. Prezident Corc Buş Senatın ona təqdim etdiyi «Freedom Support Act -S.2532; P.L102-511» qanun layihəsini tərəddüd etmədən imzaladı və qanun rəsmi olaraq qüvvəyə mindi. Bu 907-ci əlavənin Massaçusests ştatından olan senator Con Kerri təqdim etmiş və Konqresin 535 deputatından yalnız Mak Konnel, Luqar, xanım Kessembium, Senford və bir neçə deputatından savayı başda senator Bob Doul olmaqla digər ermənipərəst konqresmenlər onu müdafiə etmişdir. Bədnam 907-ci əlavənin Azərbaycana qarşı iqtisadi yardıma qadağa aksiyasının məzmunu belədir:

- Qadağa aksiyasının məzmunu belədir: - Bu və ya digər qanunvericilik aktları çərçivəsində Birləşmiş Ştatların Azərbaycana iqtisadi yardımı o zamana qədər mümkün olmayacaq ki, ABŞ prezidenti müəyyən etmiş olsun və bu haqda Konqresə xəbər çatdırsın ki, Azərbaycan hökuməti bütün blokadaları, Ermənistan və Dağlıq Qarabağa qarşı zor gücünün istifadəsini dayandırmaq üçün əməli tədbirlər planı həyata keçirir.

Bu günə qədər ABŞ Senatında 907-ci əlavə ətrafında aşağıdakı hadisələr ictimai fikri bu məsələyə yönəltməklə ciddi nəticələr qazanmışdır.

1. 1993-cü ilin  7 noyabrında senator De Konsini 907-ci əlavənin yenidən nəzərdən keçirilməsinin Konqresə tövsiyə etmişdir.
2. 1994-cü ilin əvvəllərində Konqresin Nümayəndələr Palatasında Xarici Məsələlr Üzrə Komitə başçısı Li Hamilton Azərbaycan hökumətinə yardım göstərilməsinə qadağanın ləğv edilməsini nəzərdə tutan qanun layihəsilə qanunvericilik təşəbbüsü göstərmişdir.
3. 1994-cü ilin mayında bəzi konqresmenlər Nümayəndələr Palatasında bəyanatla çıxış edərək 907-ci əlavəyə mənfi münasibətini bildirmişdir.
4. 1994-cü ilmayın 5-də senatorlar Q. Reyd və P. Sayma Konqresə 218 saylı qətnamə layihəsi təqdim etmişdir. Qətnamədə ilk dəfə olaraq Ermənistan münaqişənin iştirakçısı kimi göstərilmişdir.
5. 1994-cü il iyunun 16-da senator Patrik Lehi Dövlət Departamentinin təklifi və himayəsi ilə xarici ölkələrə 1995-ci ildə Yardım Büdcəsinin Maliyyləşdirən Komitədə 907-ci əlavənin humanitar yardıma aid edilməsini nəzərdə tutan layihə vermişdir.
6. 1994-cü il iyunun 20-də konqresmen Lenni 907-ci əlavənin ləğvi haqqında qanun layihəsini müzakirə üçün Konqresə təqdim etmişdir. «Lenni lahiyəsi»-nin əsas məqsədi “Kerri düzəlişi”-ni ləğv edilməsi və 907-nin aradan ötürülməsi idi. Lakin “Lenni layihəs”i Konqresdə özünə tərəfdar tapa bilmədiyindən qəbul edilmədi (33, səh.38-39).

ABŞ konqresində Azərbaycan üçün humanitar yardım edilməsi nəzərdə tutulmuşdu. Təəssüflər olsun ki, var gücü ilə fəaliyyətə başlayan erməni lobbisi Konqresdə Azərbaycanı bu imkandan məhrum edir. Nümayəndələr Palatası Buş Administrasiyasmm təklifini dəyişir: paritetə üstünlük verilməsi bəhanəsilə hər ölkə üçün 5 milyon dollar hərbi yardım ayrılması barədə qərar qəbul olunur. Senata ötürülən qanunvericilik layihəsi isə kökündən dəyişdirilir. Senat Ermənistana 8 milyon dollar həcmində hərbi yardım ayrılmasına qərar verir. Azərbaycana hərbi yardımı müəyyən etmək isə Administrasiyaya həvalə olunur.

Bütün bu layihə və düzəlişlər Azərbaycan diasporunun formalaşmaqda olan lobbisinin rəsmi qeydiyyatdan keçməmələrinə baxmayaraq onların Azərbaycanın haqq işini dəstəkləməsi prosesinə qoşulmaları ABŞ-da əməlli-başlı Azərbaycan xeyrinə lobbiləşdirmə kompaniyasına səbəb olmuşdur. Artıq bu gün Amerikada Azərbaycan lobbistləri kimi tanınan siyasi xadimlər, Breit Alaunroft, Zbiqnev Bjezinski, Con Sun, Sem Braunbək, Riçard Armiton və s. öz çıxışlarında "neft strateji məhsuldur, Amerika Azərbaycanın neft yataqlarının kəmiyyətini Küveytin və ABŞ-m ehtiyatlarına bərabər sayır! Amerikanın milli mənafeləri 907-ci əlavənin ləğvini tələb edir. Erməni diasporu və lobbisi ABŞ-ın milli, nefti maraqlarından çox zəifdir!" kimi şüarları siyasi dairələr içərisində tez-tez xatırlanır .

907-ci əlavənin ləğv edilməsini neft yataqlarının işlədilməsi üçün ABŞ hökumətinin təminatlı istiqrazlarının və maliyyə yardımının qrantı kimi qiymətləndirilən Amerikanın neft şirkətləri bu şəxslərin yardımı ilə Konqresin ermənilərin işi üzrə üç nəfərdən ibarət işçi qrupu ilə qüvvətlənmiş güclü erməni lobbisinə əməlli-başlı müqavimət göstərir. Məhz onların səyi nəticəsində dəfələrlə ermənipərəst konqresmenlərin Azərbaycan əleyhinə növbəti sanksiyalar qəbul etdirmək kimi cəhdləri baş tutmamış, 907-ci əlavənin yumşaldılmasına doğru irəliləyişlər baş vermişdir. "Kerri düzəliş" inin aradan qaldırılmasına baxmayaraq təkcə 1993- 1995-ci illərdə Azərbaycana qeyri-hökümət təşkilatları vasitəsi ilə 99 milyon dollar həcmində yardım edilmiş, ABŞ-ın "Eksson", "Amoko", "Şevron", "Yunikal", "Penzoyl", "Mobil" kimi ən iri trans milli neft korporasiyaları Azərbaycandakı neft layihəsinin həyata keçirilməsi prosesinə cəlb edilərək Azərbaycan iqtisadiyyatına iri həcmdə uzunmüddətli investisiya qoymağa başlamışlar. 1996-cı ildən etibarən Amerikada Azərbaycan diasporunun lobbiçilik işi xeyli güclənməyə başladı. Ötən illərdə Nümayəndələr Palatası, sonra isə Senat Azərbaycana birbaşa humanitar yardımının göstərilməsini nəzərdə tutan Çarlz Vilson düzəlişi adlanan qanun layihəsini təsdiq etdi. Elə həmin gündə ABŞ prezidenti qanun layihəsini imzaladı (33, səh. 12-13). Konqresmen Ç. Vilsonun təşəbbüsü «Azadlıq müdafiə akt»- na 907-ci düzəlişə əlavədir. Vilson düzəlişinə qədər

Azərbaycana yalnız qeyri-hökumət təşkilatlarının xətti ilə yardım göstərilməsi mümkün idi. Qəbul edilmiş yeni düzəlişdə isə deyilir “Azərbaycan hökumətinə yardım o halda göstərilə bilər ki, prezident müəyyən etsin ki, qeyri-hökumət təşkilatları tərəfindən Azərbaycana göstərilən yardım qaçqınların və məcburi köçkünlərin ehtiyaclarını lazımi səviyyədə ödəmir” (40, səh 46).

Vilson düzəlişinə qədər Amerika hökuməti Azərbaycana yalnız qeyri-hökumət təşkilatları (JVGO) və şəxsi xeyriyyəçi təşkilatlar (PVO) vasitəsi ilə humanitar yardım göstərirdi. Bu PVO-lara «Save The children Care», «Adventist Development and Relief (ADRA) və s. daxildir. Ancaq bu təşkilatlara birbaşa dövlət strukturları ilə kontakt saxlamaq qadağan edilirdi. Digər postsosialist ölkələrində olduğu kimi, Azərbaycanda da köməyin edilməli olduğu infrastrukturlara tibbi xidmət də daxil idi. Bizim ölkədə isə demək olar ki, əksəriyyət tibbi müəssisələr dövlət mülkiyyətindədir. Bu isə çox gülünc şəraitə gətirib çıxarırdı.

Bununla yanaşı humanitar təşkilatların əməkdaşları qaçqınların evlərini təmir edə bilməzdilər. Buna səbəb isə həmin evin dövlət mülkiyyətində olması idi. Bundan başqa, Vilson düzəlişi qəbul edilən bu düzəlişi dəstəkləyənlər 907-ci düzəlişin mənfi tərəflərini xüsusilə vurğulayırdılar. 907-ci düzəlişin məzmununa uyğun olaraq Azərbaycanin hər hansı nüfuzlu şəxsiyyəti tutduğu mövqedən düşdüyü situasiyadan asılı olaraq ABŞ tərəfindən keçirilən hər hansı layihələrdə iştirak edə bilməzlər. Amerika mütəxəssisləri isə Azərbaycanda demokratik və hüquqi quruculuq işlərində iştirak edə bilməzdilər. Azərbaycan isə demokratik dövlət quruculuğu yolunda apardığı çətin inkişaf mərhələsində Amerikanın köməyinə ehtiyac duyduğu zaman isə kömək qanunla qadağan edilirdi.

Azərbaycan xeyrinə lobbiçilik edən yuxarıda adları sadalanan siyasətçilər və dövlət xadimlərinin güclü erməni diasporu və lobbistləri ilə mübarizədə bəzi məsələlərdə qələbə qazanmasına baxmayaraq 1990-cı illərdən bəri erməni lobbisi və diasporu Amerikanın Azərbaycan münasibətində hələ də təsir etmə qüvvəsi qalmaqdadır. Azərbaycan diasporunun güclü lobbi mexanizminin olmaması erməni

lobbisi və diasporuna Cart Blanche verir ki, bu da Konqres və digər ictimai təşkilatlarda onların sözünün keçməsinə imkan yaradır. Əvvəllər ermənipərəst olmuş daha sonralar Azərbaycanın haqlı olduğunu anlayıb onun xeyrinə lobbiçiliklə məşğul olan Bob Livinqston 907-ci əlavənin ləğv edilməsi üçün ciddi mübarizə aparır. 1994-cii ildə Bob Livinqston bu əlavənin ləğv edilməsinə nail olmaq şansı ola bilərdi. Ancaq Kapitolı zirvəsində hələ də güclü olan erməni lobbisi Nümayəndələr Palatasının müzakirəsində 907-ci əlavəyə daha yeni bir əlavə bənd edilməsinə nail olur və 907-ci əlavə qüvvədə qalır. Ancaq ermənilərdə gözlənilməz faktlarla rastlaşmalı olurlar. Konqresmenlərin əksəriyyəti Livinqstonu dəstəkləmişlər. Bu səbəbdən də Livinqstona qarşı mübarizəyə başlayan erməni diasporu və lobbisi bütün güclərin spiker Dennis Hastertenin ətrafında cəmlənməsinə baxmayaraq Hasterte bəzi məsələlərin qəbul edilməsində erməni diasporu və lobbisini istədiklərinin əleyhinə olaraq addım atmışdır.

Erməni diasporunun Kapitoli təpəsində və Konqresdə Azərbaycan əleyhinə bir çox sənədlərin qəbul edilməsinə nail olmuşlar. Bunlardan biri 1993-cü ilin fevralın 17-do konqresmen Devid Boniyerin qəbul edilmiş "Dağlıq Qarabağ ətrafında mübahisələrə dair" adlı 86 saylı qətnamənin məzmunu respublikamıza qarşı açıq-aşkar düşmənçilik ruhunda tərtib olunmuş idi. Bu qətnamənin məzmunundan görünürdü ki, əsl həqiqət tərsinə yazılaraq Azərbaycan təcavüzkar kimi günahlandırılır və 907-ci əlavənin qüvvədə saxlanılmasının zəruriliyi tələb olunurdu. İkinci erməni diaspor və lobbisini böyük qələbəsi qatı ermənipərəst Konqresin Erməni məsələləri Üzrə İşçi Qrupunun həmsədri konqresmen Con Edvard Porterin 1996-cı ilin 11 iyununda 1997-ci il üçün xarici əməliyyatlar haqqında qanun layihəsinin - əlavəsi nəzərə alınmaqla qəbul etmişdir.

"Porter əlavəsi" nə görə ayrı-ayrılıqda həm Azərbaycanın, həm də Dağlıq Qarabağın qaçqın və köçkün düşmüş əhalisinə uyğun olaraq 7:1 nisbətində humanitar yardım göstərilməsi nəzərdə tutulmuşdur.Bunun iki cəhətinə görə dövlətçiliyimiz əleyhinə yönəldiyi qənaətinə gəlmək olar.

1 Dağlıq Qarabağ Azərbaycanın tərkib hissəsinin deyil, müstəqil subyekt kimi təqdim edilirdi.

2 İki müxtəlif subyektə müxtəlif yardımlar təklif olunmaqla göstərilən yardım arasında nisbət qoyulurdu.

Azərbaycan dövlət hakimiyyət orqanlarının, ictimaiyyətinin kəskin etirazlarına səbəb olmuş "Porter əlavəsi" ABŞ-da da birmənalı qarşılanmadı. Artıq iyunun 12-də ABŞ dövlət departamenti "Porter əlavəsi" ilə bağlı xüsusi bəyanat verərək qanun layihəsində göstərilən şəkildə düzəlişlərin qəbul edilməsini Dağlıq Qarabağ münaqişəsinin siyasi danışıqlar vasitəsi ilə aradan qaldırılmasının müdafiə olunmasına dair hazırda edilən səylərə qarşı maneə yaratmaq cəhdi kimi qiymətləndirdi. Bundan əlavə bəyanatda Azərbaycan Respublikasında ehtiyacı olan şəxslərə yardımın artırılması ilə Dağlıq Qarabağa göstərilən eyni səylər arasında müəyyən nisbət qoyulmasına yönəldilən hər cür cəhdlər pisləşmişdir. Qeyd edilmişdir ki, ABŞ Azərbaycanda 780000-dək olan qaçqın və məcburi köçkünə humanitar yardım göstərmək səylərini davam etdirəcəkdir (41, səh 48-49).

Azərbaycan diplomatiyası "Porter əlavəsi"ndən dərhal sonra Xəzər dənizində maraqları olan neft kompaniyalarına təzyiq göstərməyə başladı. ABŞ hökuməti bilirdi ki, Konqres tərəfindən 907-ci düzəlişə "Porter əlavəsi" – ABŞ-ın neft kampaniyaları üçün uğursuz klimat yaratmışdır. Yuxarıda göstərildiyi kimi ABŞ hökuməti "Porter əlavəsi" işi qəbul edilməsindən narahat olurdu. Bu narahatçılığa səbəblərdən biri də nümayəndələr palatası tərəfindən dəstəklənən "Porter əlavəsi"ndə Azərbaycana və Dağlıq Qarabağa yardım göstərilməsinə aid bəndində bu ölkənin xarici əməliyyatlar qanun layihəsinin hissəsi olmaqla yanaşı burada "və" sözünün Konqres tərəfindən ABŞ-ın Dağlıq Qarabağı Azərbaycanın tərkib hissəsi kimi qəbul etmədiyini göstərirdi. ABŞ isə bu qanun layihəsini rəsmi surətdə qəbul edəcəyi təqdirdə isə hər iki ölkə arasında münasibətlərin pozulmasına gətirib çıxaracaqdır. Bu səbəbdən də Klinton hökuməti Konqresə təzyiq göstərərək ABŞ-m xarici siyasətinin erməni lobbisindən asılı olmadığına bir daha vurğulayaraq Azərbaycan tərəfini təklif etdiyi kompromis variant

“və” sözünün “daxil olmaqla” əvəz edilməsinə çalışırdı (35, səh 12). “Porter əlavəsi”ni dəstəkləyən erməni diasporu Konqresə təzyiqini gücləndirərək düzəlişdə qeyd edilən Azərbaycana göstərilən yardımdan hər 7 dollardan 1 dolların Dağlıq Qarabağa ayrılması bəndinin və Dağlıq Qarabağın izahedici mətndə müstəqil obyekt kimi erməni qaçqınlarının da vəziyyətlərinin çox pis olması, bu yardımın onlara xeyli kömək edəcəyini göstərən erməni diasporu və lobbisi “Porter əlavəsi”nin müsbət cəhətləri barədə təbliğat kompaniyasına başladılar. Ancaq Nümayəndələr Palatası tərəfindən qəbul edilən “Porter əlavə”si sentyabrın 17-si 1996-cı ildə yenidən Nümayəndələr Palatasında və Makkolnelin sədri olduğu Senatın Xarici Əmliyyatlar Üzrə Uzlaşdırıcı Komissiyasının iclasında senatorlar Robert Berd, Frenk Markovski və s. senatorların rəyi nəticəsində bədnam “Porter əlavəsi” tamamilə rədd edildi. 907-ci əlavədə isə “Və” variantının Azərbaycan tərəfinin təklif etdiyi kimi “Azərbaycan Dağlıq Qarabağ regionu daxil olmaqla” variantı qəbul edilmişdir. Bu Azərbaycan diasporu və formalaşmaqda olan lobbisinin qələbəsi idi (41, səh 28).

XX əsrin sonu XXI əsrin əvvəllərində senator Sem Braunbək və Qordon Smitin irəli sürdükləri “İpək yolu” qanunvericilik təşəbbüsü Azərbaycan diasporu və lobbisinin bədnam 907-ci düzəlişinin ləğv edilməsi yolunda uğurlu addımlarından biridir. “İpək yolu” qanunvericilik təşəbbüsünün əsas mahiyyəti ABŞ siyasətinin Mərkəzi Asiya, Qafqaz və Xəzəryanı regionda məqsəd və vəzifələrini müəyyənləşdirir. Bu səbəbdən də Konqresin Azərbaycana yardımını məhdudlaşdıran 907-ci əlavənin ləğv edilməsi rəsmi Vaşinqtonun Dağlıq Qarabağ probleminin həlli ilə bağlı vasitəçilik səylərini artırmış olar “İpək yolu” qanun layihəsi (579-cu bənd) erməni diasporu və lobbisi tərəfindən anti-erməni düzəliş kimi qəbul edilmişdir. Erməni xalqına qarşı bunu düşmənçilik kimi qələmə verən erməni diasporu reallıqlıqla barışmaq istəmirlər.

2021-ci ilin sentyabr ayının sonlarında Prezident İlham Əliyev ABŞ Konqresinin qəbul etdiyi 907-ci maddənin arxasında dayanan prinsipləri çox aydın və yığcam şəkildə izah etmişdi. Bəzi ölkələrin qəbul etdiyi qərarlar sadəcə olaraq istənilən məntiqə zidd olduğunu, məhz Azərbaycan ərazisi işğal olunduğu halda, ABŞ Konqresi Azadlığa

Dəstək Aktına 907-ci maddə ilə bədnam düzəlişi qəbul etdiyini və bu düzəlişin Azərbaycanı təkcə hərbi deyil, birbaşa hərbi yardımdan, birbaşa ABŞ yardımından məhrum etdini bildirmişdi.

Zəngilan, Qubadlı, Laçın, Kəlbəcər rayonları işğal olunmuşdu və bu Ermənistanın blokadası kimi qələmə verilirdi. Ermənistanın diaspor təşkilatları, həmçinin erməni lobbisinin nəzarətində olan KİV-lərin münaqişənin mahiyyətini təhrif edirdilər. Azərbaycan lideri erməni diasporunun Ermənistan hökumətindən qat-qat güclü olduğunu vurğulayaraq, birincinin elə zəmin yaratdığını vurğulayıb ki, “Azərbaycan çoxmillətli, çoxkonfessiyalı ölkə olsa da, erməni əhalisi belə diktator ölkədə özünü təhlükəsiz hiss edə bilməz. Ona görə də, guya, Dağlıq Qarabağ ayrılmalı və Dağlıq Qarabağ müstəqil statusa malik olmalıdır.

24 oktyabr 2001-ci ildə Senat, Prezidentə 907-ci Bölmədən imtina etmək imkanı verən Qanuna düzəlişi qəbul etdi.

Kornel Ermənistanın özünün Azərbaycanın anklavı olan Naxçıvana embarqo qoyması və Ermənistanla sərhədin Azərbaycanın işğalı səbəbindən bağlanmasına məhəl qoymadığı üçün “blokada” ifadəsini əsassız adlandırıb. Üstəlik, Ermənistanın Gürcüstan və İranla sıx iqtisadi əlaqələri olduğu üçün “blokada” ifadəsinin işlədilməsi özlüyündə yalnışdır.

Azərbaycan ABŞ hökuməti tərəfindən qurulan qlobal antiterror koalisiyasına qoşulan ilk ölkələrdən biri olub. Azərbaycan öz hava məkanını müttəfiq qüvvələrin üzünə açdı və onun agentliklərinin əməkdaşlıq edəcəyinə və Amerikanın başçılıq etdiyi səylərə kömək edəcək məlumatları təqdim edəcəyinə əmin oldu.

Azərbaycana qarşı tətbiq olunmuş ədalətsiz 907-ci düzəliş ölkəmizin üzv olduğu beynəlxalq birliklər tərəfindən pislənmişdir. Ölkəmizin üzv olduğu Ümümdünya Veteranlar Birliyinin Baş Assambleyasında 2000-ci il dekabrın 3-dən 9-dək Parisdə keçirilmiş toplantısında 907-ci düzəliş pislənmişdir və bu düzəlişin ləğv olunması üçün Amerika Konqresinə müraciət ediləcəyi bildirilmişdir.Cənubi Koreya, Malyaziya, ABŞ,

Lüksemburq və s. dövlətlərin nümayəndələri Azərbaycanın mövqeyini dəstəkləmişdirlər.

Azərbaycan prezidenti Heydər Əliyev ABŞ-da etdiyi rəsmi səfərlərdə, ATƏT-in Lissabon sammitində NATOnun Madrid sammitində və digər nüfuzlu beynəlxalq təşkilatların iştirakında və bir sıra nümuzlu dövlət xadimləri, dövlət başçıları, siyasət xadimlərlə görüşündə və dünyanın bir sıra aparıcı KİV-nə verdiyi müsahibələrdə və danışıqlarda 907-ci düzəliş ölkəmiz üçün mənfi xarakter daşıdığını vurğulayaraq erməni diasporu və lobbisinin ABŞ-da və digər dövlətlərdə güclü olmasını bildirmiş və bütün bunlara baxmayaraq Azərbaycanın Amerika və digər dövlətləri ilə münasibətlərinin yalnız ikitərəfli deyil, həm də regional strateji əhəmiyyət daşıdığını qeyd etmişdir. Heydər Əliyev bildirmişdir ki, Ermənistan Azərbaycan münaqişəsinin aradan qaldırılmasında respublikamızın ədalətli mövqeyinin möhkəmləndirilməsi üçün Amerika və digər dövlətlərlə münasibətlərin genişləndirilməsinin xidməti çox olacaq və erməni diasporu və lobbisinin arzu etdiklərini gerçəklik kimi qələmə verməyə vərdiş etməsinə baxmayaraq "zavallı", "yazıq" erməni simasının əsl mahiyyətinin aşkarlanmasına şərait yaranacaqdır. (38, səh 30).

Azərbaycan diasporu və lobbisinin ABŞ-da formalaşması və güclənməsi üçün nüfuzlu yəhudi diasporu və lobbisinin köməyi daha çoxdur. 1998-ci ilin əvvəllərindən Amerikanın altı yəhudi təşkilatı Azərbaycanın adının Konqresdə təmizə çıxarılması və erməni mənşəli amerikanların tələbi ilə 1992-ci ildə Konqres tərəfindən tətbiq edilən sanksiyaların aradan götürülməsi üçün nüfuzlu Amerika Erməni Assambleyası ilə «tutaşmaq» qərarına gəlmişdir. Bu Kapitoli təpəsində işləyən xarici siyasət lobbiləri arasında ən qeyri-adi yenidən qruplaşmalardan biri olmuşdur. Yəhudilərlə ermənilər daha yaxşı təşkil edilmiş və maliyyələşdirilən iki Vaşinqton lobbisi arasında nifaq alyanslarının təlatümünü - Yaxın Şərq dövlətləri ilə Sovet İttifaqının süqutu nəticəsində onların Qafqazda əlaqələrini göstərir.

Azərbaycan hökuməti yəhudi diaspor və lobbisinin onların maraqlarını Amerikada müdafiə edərək erməni lobbisi ilə "toqquşmasını" dövlət səviyyəsində

dəstəkləmə ilə yanaşı İsrail ilə strateji əməkdaşlığı gücləndirməyi xarici siyasət konsepsiyasına daxil etməklə xarici siyasətdə zəruri korrektələr etməlidir. Əgər bu korrektələr edilsə Azərbaycan udmuş olacaqdır. Çünki beynəlxalq aləmdə yəhudi diasporu və lobbisi kimi qüdrətli bir qüvvənin müdafiəsini qazanmaqla Azərbaycan adının təmizə çıxarılmasına və ölkəmizə qarşı olan müxtəlif beynəlxalq səviyyəli sanksiyaların aradan götürülməsinə nail ola bilərik (36, səh.6).

## 2.2. Birləşmiş Ştatların Cənubi Qafqaz siyasətinə lobbi qruplarının təsiri (1994-2020-ci illər)

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli Heydər Əliyevin xarici siyasətində başlıca yer tuturdu. Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə tarixi qayıdışından sonra münaqişənin aradan qaldırılmasına nail olmaq üçün göstərdiyi fəaliyyəti, ən yüksək səviyyədə dövlət başçıları və nümayəndə heyətləri ilə ikitərəfli və eləcə də çoxtərəfli görüşlərdə, beynəlxalq forumlarda, ATƏT-in zirvə görüşlərində, Minsk qrupunun həmsədrləri ilə aparılan müzakirələrdə, həmçinin Ermənistan Prezidenti ilə təkbətək danışıqlarda göstərdiyi ardıcıl səylər Heydər Əliyevin siyasətinin mühüm hissəsini təşkil edirdi.

1991-1992-ci illərdə hərbi əməliyyatlar geniş vüsət almağa başladı. Erməni silahlı birləşmələri ən müasir silahlardan istifadə edərək 1992-ci ilin fevral ayında Azərbaycanın Dağlıq Qarabağ bölgəsində 800 nəfərin ölümü ilə nəticələnən Xocalı soyqırımını həyata keçirdi. 1992-ci ilin mayında isə bu hücumlar Şuşanın, sonra da Laçının süqutu ilə nəticələndi. Beləliklə, erməni silahlı qüvvələri Dağlıq Qarabağın ətrafındakı rayonların da işğalına başladı. BMT-nin Təhlükəsizlik Şurasının 822, 853, 874, 884 nömrəli qətnamələrində erməni silahlı birləşmələrinin Azərbaycan torpaqlarından dərhal və qeyd-şərtsiz çıxarılması və qaçqınların öz doğma yerlərinə qaytarılması tələb olunsa da, bu sahədə beynəlxalq ictimaiyyətin səylərinə və çağırışlarına məhəl qoymayan erməni silahlı birləşmələri Azərbaycan rayonlarını işğal

etməkdə davam etdi. 1993-cü ilin aprelindən başlayaraq bir neçə ay ərzində Kəlbəcər, Ağdam, Cəbrayıl, Qubadlı, Füzuli, Zəngilan işğal olundu. Onu da qeyd etmək lazımdır ki, Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti beynəlxalq ictimaiyyət tərəfindən pislənsə də, Ermənistan faktiki olaraq heç bir dövlət tərəfindən təcavüzkar kimi tanınmadı. Yalnız 1993-cü ilin aprel ayında Pakistanın Kəraçi şəhərində İslam Konfransı Təşkilatının 21-ci konfransında Ermənistanın təcavüzkar dövlət olduğu bəyan edildi.

1994-cü ilin dekabrında ATƏM-in Budapeştdə keçirilən Zirvə görüşündə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar ATƏM-in fəaliyyətinin intensivləşdirilməsi barədə qərar qəbul olundu. ATƏM Azərbaycan Respublikası dövlətlərinin başçıları nizamlamanın mərhələli xarakterini müəyyən edərək və ATƏM-in Minsk Konfransının həmsədrlərinə silahlı münaqişənin dayandırılması barədə saziş hazırlamağı tapşırdı. Saziş bütün tərəflər üçün münaqişənin əsas nəticələrinin aradan qaldırılmasını özündə əks etdirməli və Minsk Konfransının çağırılması üçün əsas olmadı idi. Münaqişə zonasında sülhün təmin edilməsi üçün ATƏM-in çoxmillətli qüvvələrinin yerləşdirilməsi barəsində bir qərar qəbul olundu.

ATƏT-in 1994-cü il Budapeşt, 1996-ci il Lissabon və 1999-cu il İstanbul sammitlərində münaqişənin dinc və siyasi yollarla həlli istiqamətində bir sıra mühüm təkliflər irəli sürüldü. Xüsusilə 1996-cı ildə ATƏT-in Lissabon Zirvə görüşü zamanı Heydər Əliyevin siyasi uzaqgörənliyi və müdrikliyi sayəsində Azərbaycanın mövqeyi Ermənistan istisna olmaqla, dünyanın 53 dövləti tərəfindən qəbul edildi, tanındı və müdafiə olundu. Qeyd etmək lazımdır ki, 1993-2000-ci illər arasında Prezident Heydər Əliyev ATƏT rəhbərliyi və Minsk qrupunun təmsilçiləri ilə 130-dan çox görüş keçirmişdir. ATƏT-ə üzv olan ölkələrin liderləri ilə keçirilən görüşləri, aparılan danışıqları da buraya əlavə etsək, Dağlıq Qarabağ münaqişəsini həll etməyi öz üzərinə götürmüş bu beynəlxalq qurumla Azərbaycanın nə qədər sıx və intensiv işlədiyi, qarşılıqlı əməkdaşlıq etdiyi aydın olar.

Heydər Əliyev 1993-cü ildən  2001-ci ilədək 68 ölkənin prezidenti və dövlət başçısı ilə 485 görüş keçirmişdir. Bu görüşlərin hamısında Ermənistan-Azərbaycan,

Dağlıq Qarabağ münaqişəsi müzakirə olunmuşdur. Konkret rəqəmlərlə ifadə etsək, Heydər Əliyev ABŞ-ın Prezidenti, xarici işlər naziri ilə bu məsələni 18, Fransa rəhbərləri ilə 16, Rusiya ilə 23, Türkiyə rəhbərləri ilə 78 dəfə müzakirə etmişdir. BMT-nin baş katibləri ilə onlarca görüş olmuşdur, NATO-nun, Müstəqil Dövlətlər Birliyinin Zirvə görüşlərində, İslam Konfransı Təşkilatının iki, İqtisadi Əməkdaşlıq Təşkilatının dörd Zirvə görüşündə, türkdilli ölkələrin dövlət başçılarının Zirvə görüşlərində hər dəfə Heydər Əliyev Ermənistan-Azərbaycan münaqişəsini gündəliyə çıxarmışdır.

Heydər Əliyevin milli meyarlara və bəşəri dəyərlərə əsaslanan dövlətçilik siyasəti nəticəsində müstəqil Azərbaycan Respublikası keçmiş SSRİ məkanında geosiyasi və geoiqtisadi qüdrətə malik dövlətə çevrilmişdir. Məhz bu ideya dünyada yaşayan Azərbaycan toplumunu bir araya gətirməyə müvəffəq olunmuşdur. Bakı şəhəri Azərbaycanın deyil, dünyanın beş qitəsinin paytaxtına çevrilmiş və Cənubi Qafqaz regionunun mərkəzi statusunu qazanmışdır. Beləliklə, 23 may 2001-ci ildə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin sərəncamı ilə 9-10 noyabr 2001-ci ildə Bakı şəhəri Azərbaycan tarixinin ən əlamətdar hadisələrindən birinə ev sahibliyi etmişdi. Məhz həmin gün tarixin m üxtəlif dövrlərində dünyanın 5 qitəsinə səpələnən azərbaycanlıların iştirakı ilə Dünya Azərbaycanlılarının 1 Qurultayı keçirildi. Həmçinin, Azərbaycan Prezidentinin 2002-ci il 5 iyul tarixli 730 saylı fərm anına müvafiq olaraq Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi yaradıldı. Daha sonra bu işin geniş müstəviyə çıxarılması üçün 21 fevral 2003-cü ildə "Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında" Azərbaycan Respublikasının Qanunu təsdiq edildi. Sadalanan amillər dövlət - diaspor münasibətlərində yeni mərhələnin yaranm asına şərait yarandı. Bu ənənə Prezident İlham Əliyev tərəfindən davam etdirilir. Onun müvafiq fərmanları və iştirakı ilə 2006-cı il m art ayının 16-da Dünya Azərbaycanlılarının II, 2011-ci ilin 5-6 iyul tarixlərində isə III Qurultayı keçirildi. Diaspor və lobbi işinin müasir dünyanın reallıqlarına uyğun həyata keçirilməsi və bu sahədə konkret işin görülməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti 19 noyabr 2008-ci il tarixdə Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş Üzrə Dövlət

Komitəsinin bazasında Diasporla İş üzrə Dövlət Komitəsinin yaradılması haqqında sərəncam imzaladı. Görülmüş işlər içərisində Dünya azərbaycanlıları ziyalılarının, Azərbaycan və Türk diaspor təşkilatları rəhbərlərinin I forumunun, Türk dövlət və Cəmiyyətlərinin XI Dostluq, Qardaşlıq və Əməkdaşlıq Qurultayının keçirilməsi, Dünya Azərbaycanlılarının Həmrəylik Xartiyasının təsdiq edilməsi, Avropa Azərbaycanlılar Konqresinin və Cəmiyyətlərinin fəaliyyət proqram larının qəbul olunması, Azərbaycan-İsrail Beynəlxalq Assosiasiyasının təsis edilməsi, Kanada Azərbaycan Təşkilatlar Assambleyasının I Qurultayının və bu kimi digər tədbirlərin həyata keçirilməsi diaspor quruculuğunda mühüm hadisələrdəndir. Eyni zamanda, bu fəaliyyətin gəncləşməsi, gənclər təşkilatlarının geniş vüsət alm ası və 2010-cu ilin 28 noyabr tarixində Alm aniya Federativ Respublikasının Frankfurt-Mayn şəhərində dünyada yaşayan azərbaycanlı gənclərin I forumunun keçirilməsi görülmüş işlərin geniş məntiqi nəticəsi kimi diqqətə layiqdir. Bunlarla yanaşı, lobbi institutu yarandı və geniş arealda fəaliyyətə başladı. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində lobbiçiliyə verdiyi böyük önəmi belə ifadə edir: “Ümumazərbaycan məsələləri ilə bağlı təsirli addım lar atılmalı, aparıcı ölkələrdə güclü Azərbaycan lobbisi formalaşdırılmalıdır. Dost icmalar və lobbi təşkilatlan ilə səmərəli əməkdaşlıq qurulmalı, diaspor quruculuğu sahəsində onların m üsbət təcrübəsindən istifadə olunmalıdır” . Hal-hazırda Azərbaycan lobbisi öz səmərəli işi ilə ölkə hüdudlarından kənarda milli simamızı əks etdirir. Bu sahədə ayrı-ayrı ölkələrdə yaşayan soydaşlarımız tərəfindən müəyyən nailiyyətlər əldə edilsə də, bunu qənaətbəxş hesab etmək olmaz. Lakin son illər yəhudi, türk və digər diaspor və lobbilərlə, onlqarşılıqlı m araqlar əsasında əməkdaşlıq etmək, onların köməyindən istifadə edərək təcrübə toplamaq və qarşıya qoyulan məqsədləri reallaşdırmaq artıq nəzəriyyədən praktikaya keçidin göstəricisidir.Bu gün artıq formalaşmış Azərbaycan diasporunun imkanlarından geniş istifadə edilərək məqsədyönlü lobbi fəaliyyətinin inkişaf etdirilməsi və lobbi institutlarının yaradılm ası dövrün vacib tələblərindən biri hesab olunur. Lobbiçiliyin fəaliyyət istiqamətinə gəldikdə isə birmənalı şəkildə qeyd

olunmalıdır ki, bu fəaliyyət həm milli m araqların qorunmasına, həm də qloballaşan dünyanın təhlükəsizliyinə xidmət etməlidir.

NATO-nun 50 illiyinə həsr olunmuş yubiley tədbirlərində iştirak etmək üçün Vaşinqtona gəlmiş Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev aprelin 24-də Ağ evdə Amerika Birləşmiş Ştatlarının Prezidenti Bill Klinton ilə görüşdü. Həmən görüşmələr əsnasında Bill Klinton və Heydər Əliyev arasında keçən söhbətlərdə, ABŞ-ın Cənubi Qafqazda gedən hadisələrə mövqeyini bildirmişdir. Belə ki, Bill Klinton baş verən münasibətlərin aradan qaldırılmasında diplomatiyadan istifadə olunmasının daha məqsədəuyğun olduğunu və münasibətləri sülh yolu ilə nizama salmağın daha əlverişli olduğunu bildirmişdir. Heydər Əliyev və Bill Klinton arasında keçən görüşlərdə ABŞ-ın mövqeyini tam birmənalı şəkildə qiymətləndirmək mümkün olmazdı.

Qeyd etmək lazımdır ki, Minsk qrupunun təsis olunmuş həmsədrlərində olan dövlətlərdən biri də məhz ABŞ-dır. Lakin baş verən hadisələr və Minsk qrupunun fəaliyyətində əsaslı şəkildə ciddi addımlar atılmamışdır. 2020-ci ilə qədər olan tarixi dövrü dərindən araşdırsaq bizə məlum olur ki ABŞ Ermənistan-Azərbaycan arasında baş verən münasibətlərə düzgün yanaşmamış və bir mənalı şəkildə neytral mövqe nümayiş elətdirmişdir.

Ona görə də 1994-2020-ci illər ərzində ABŞ-ın Cənubi Qafqazda (Ermənistan-Azərbaycan) baş verən hadisələri tam şəkildə dərindən analiz etdik də, ABŞ lobbisinin fəaliyyətinin neytral mövqedən olduğunu görə bilərik.

### 2.3. 44 günlük Vətən müharibəsi və Azərbaycanın ABŞ-da lobbi fəaliyyəti: problemlər və perspektivlər

2020-ci il noyarbrın 10-da Rusiya, Azərbaycan Prezidentləri və Ermənistan Baş Naziri birgə bəyənat imzaladılar. Bəyanata görə, bütün hərbi əməliyyatlar dayandırılmalı idi. Bəyanət həmçinin Azərbaycanın müharibə zamanı işğaldan azad edə bilmədiyi Qarabağdan kənarda işğal edilmiş bir neçə rayounun mərhələli şəkildə ermənilər

tərəfindən çıxarılmasını nəzərdə tuturdu. Qarabağın bəzi hissələrində və kritik Laçın koridoru boyunca Rusiya sülhməramlıları yerləşdiriləli idi.Sazişdə həmçinin qaçqınların və məcburi köçkünlərin BMT-nin Qaçqınıar üzrə Ali Komissarlığını himəyəsi altında geri qaytarılması və regionda nəqliyyat və iqtisadi yolların açılması ilə bağlı müddüalar öz əksini tapmışdı.

10 noyabr 2020-ci il tarixində Azərbaycan Respublikası, Rusiya Federasiyası və Ermənistan Respublikasının liderləri tərəfindən imzalanmış üçtərəfli bəyanat erməni xalqının Baş Nazir Nikol Paşinyana qarşı çoxsaylı etiraz aksiyalarının keçirməsinə səbəb olmuşdur. Erməni diasporu da xalqa dəstək olaraq Ermənistan Respublikasının "yeni" hakimiyyətini tənqid etməyə başlamışdır. Belə ki, erməni diasporuna məxsus təşkilatlar sənədin imzalanmasından dərhal sonra yaydıqları bəyanatlarda hökumət başçısını birbaşa günahlandırmasalar da, sonradan tənqidi yanaşmalar artmağa başlamışdır.

Üçtərəfli bəyanatın imzalanmasından sonra ABŞ Konqresinin Nümayəndələr Palatasında Erməni Qrupunun üzvləri Frenk Pelloun (Frank Pallone), Ceki Spiyer (Jackie Speier), Qas Bilirakis (Gus Bilirakis) və Adam Şif (Adam Schiff) ABŞ hökumətinə müraciət edərək Türkiyənin Yaxın Şərq və Cənubi Qafqaz regionlarında "sabitliyi pozmasına" reaksiya verməyə, bir neçə gün sonra isə sözügedən qrupun nümayəndələri Tramp administrasiyasını ATƏT-in Minsk qrupunun regionda fəaliyyətini bərpa etməyə çağırmışlar. Senat nümayəndəsi Robert Menendez isə sözügedən sənədin regionda uzunmüddətli xaosa səbəb olacağını vurğulamışdır (15, səh 57).

Bundan başqa, diaspor nümayəndələri baş nazir Nikol Paşinyanın istefa verməsini tələb etmişlər. Belə ki, "Daşnaksutyun" Erməni İnqilabi Federasiyası tərəfindən yayılmış bəyanata əsasən 15-dən artıq diaspor təşkilatı N.Paşinyanın dərhal istefa verməsi tələbini irəli sürmüşlər. Rusiya Erməniləri Birliyinin (Союз Армян России) nümayəndələri də sözügedən çağırışa qoşulmuşlar. Rusiyada Ermənilər Birliyi Ermənistan prezidenti Armen Sarkisyanı da günahlandıraraq onu xəyanətdə ittiham

etmişdir. Diaspor nümayəndələri hakimiyyəti yanlış məlumatların yayılmasında da günahlandırmışlar.

Erməni diasporunun nümayəndələri məskunlaşdıqları ölkələrin hakimiyyət nümayəndələrini Azərbaycanın Dağlıq Qarabağ ərazilərində ermənilər tərəfindən yaradılan qondarma rejimi tanımağa çağırmışlar. Həmin çağırışların nəticəsi olmuşdur. Belə ki, 17 noyabr 2020-ci il tarixində Niderland Parlamentinin Nümayəndələr Palatası (Tweede Kamer) Türkiyə və Azərbaycana qarşı sanksiya tətbiq etməyə çağıran 3 təklif, Azərbaycan, Rusiya və Ermənistan arasındakı üçtərəfli razılaşmaya dair isə 2 təklif qəbul etmişdir.

Belə ki, Türkiyəyə silah ixracına moratorium qoyulmasını nəzərdə tutan 35570-V-45 nömrəli təklif Xristian Birliyi partiyasının nümayəndəsi Coel Vurdevind tərəfindən irəli sürülmüş və bu təklif Xristian Demokratik Çağırış) partiyasının nümayəndəsi Martin van Helvert, "Demokratlar 66" partiyasının nümayəndəsi Şord Şordsma habelə Azadlıq və Demokratiya naminə Milli partiyasının nümayəndəsi Sven Kupmans tərəfindən dəstəklənmiş, nəticədə 3 səsə qarşı 147 səs çoxluğu ilə parlament tərəfindən qəbul edilmişdir.

Dağlıq Qarabağda ermənilərə qarşı "təcavüzün törədilməsinə" görə məsuliyyət daşıyan insanlara sanksiyaların tətbiq olmasına dair 35570-V-35 nömrəli təklif Sosialist partiyasının (Socialistische Partij) nümayəndəsi Sadet Karabulut tərəfindən irəli sürülmüş, həmin təklif 38 səsə qarşı 112 səs çoxluğu ilə qəbul edilmişdir. (18, səh 58) Azərbaycan Respublikası Prezidentinə qarşı sanksiyaların tətbiq edilməsi barədə 35570-V-33 nömrəli təklif Xristian Demokratik Çağırış (Christen-Democratisch Appèl) partiyasının nümayəndəsi Martin van Helvert tərəfindən irəli sürülmüş Xristian Birliyi (Christen Unie) partiyasının nümayəndəsi Coel Vurdevind tərəfindən dəstəklənmiş və 52 səsə qarşı 98 səs çoxluğu ilə qəbul edilmişdir. Avropa İttifaqı, BMT və ya ATƏT-i təmsil edən nümayəndələrin Dağlıq Qarabağa göndərilməsini nəzərdə tutan, 35570-V-31 nömrəli təklif Xristian Demokratik Çağırış (Christen-Democratisch Appèl) partiyasının nümayəndəsi Martin van Helvert tərəfinədən irəli sürülmüş, Coel Vurdevind, Sven

Kupmans, Şord Şordsma tərəfindən dəstəklənmişdir. Lilian Plumen (Lilianne Ploumen) tərəfindən irəli sürülmüş, Sadet Karabulut və Bram van Ojik tərəfindən dəstəklənmiş 35570-V-42 nömrəli təklif isə ErmənistanAzərbaycan münaqişəsinin çoxtərəfli kontekstdə araşdırılmasını, ATƏT və ATƏT-in Minsk Qrupunun ərazidə nəzarətə cəlb olunmasını nəzərdə tutmuşdur. Həmin gün yerli vaxtla saat 09:30-da Plein meydanında erməni diasporuna məxsus Abovyan mərkəzinin nümayəndələri parlamentin ermənipərəst üzvləri Coel Vurdevind, Martin van Helvert və Sadet Karabulut ilə görüşmüş, onlara irəli sürdükləri təkliflərə görə təşəkkürlərini bildirmişlər.

Fransada keçirilmiş iclasda Senat tərəfindən səs çoxluğu ilə Dağlıq Qarabağda mövcud olan rejimi dəstəklənmişdir. Eyni zamanda senatda qoyulmuş səs çoxluğuna uyğun olaraq Türkiyə və Azərbaycanın Ermənistana qarşı olan mövqeyi kəskin şəkildə pislənilmişdir. Keçirilmiş iclasda qəbul edilmiş qətnamənin mətni bundan ibarətdir:

1. Baş vermiş qarşıdurma nəticəsində erməni tərəfindən əziyyət çəkən insanların hüquqlarının müdafiə edilməsi və onlara müəyyən humanitar yardımın nəzərdə tutulması;

2. Hökuməti Avropa tərəfdaşları ilə birlikdə Ermənistan və qondarma rejimə humanitar yardım göndərməyə çağırmağı;

3. Münaqişədə Türkiyənin təsdiq edilmiş rolunu nəzərə alaraq hökuməti Avropa tərəfdaşları ilə birlikdə Türkiyənin Avropa İttifaqına daxil olması məsələsini bir daha nəzərdən keçirməyi;

4. İnsan hüquq və azadlıqlarının tam şəkildə müdafiə olunması istiqamətində əsaslı şəkildə dəyişikliklərə tam şəkildə riayət edilməsi və baş verəcək problemlərin aradan qaldırılması;

5. Dünya ölkələrində insanlar arasında olan dini fərqlərin aradan qaldırılması və müsəlmanlar tərəfindən sıxışdırılan xristianların tam şəkildə müdafiə olunması;

Belçika Parlamenti də “Türkiyə hakimiyyətinin dəstəyi ilə qondarma rejimdə yaşayan ermənilərə qarşı Azərbaycan tərəfindən törədilən hərbi təcavüzləri” tənqid edən

qətnamə qəbul etməyə hazır olduğunu bildirmişdir. Qətnamə həmçinin Azərbaycanı "mülki əhaliyə xəsarətin yetirilməsində , kasetli və fosfor bombalardan istifadədə" günahlandırmışdır. Belçika Parlamenti tərəfindən qəbul edilmiş qətnamədə Azərbaycan və xüsusilə qeyd olunan Türkiyə tərəfindən "zəbt edilmiş Dağlıq Qarabağ" torpaqlarından çıxarılması tələbi irəli sürülmüşdür, eyni zamanda həmin ərazidə yaşayan ermənilərin öz hüquq və azadlıqlarının müdafiə edilməsi istiqamətində işlərin görülməsinin vacibliyi qeyd edilmişdir. Qətnamə Belçika Federal Parlamentinin xarici əlaqələr komitəsi tərəfindən qəbul edilsə 2 də Belçika parlamenti Qarabağ ərazisinin Azərbaycan Respublikasının ayrılmaz hissəsi olduğunu bir daha təsdiqləmişdir.

Bundan başqa, ABŞ-ın bir neçə ştatı, Cənubi Avstraliyanın qanunverici şurası, erməni diasporunun çoxluq təşkil etdikləri şəhərlərin şuraları və s. qondarma rejimin tanınması haqqında qərar qəbul etmişlər.

11 yanvar 2021-ci il tarixində Baş Nazir N.Paşinyanın Moskva şəhərinə səfəri və orada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinlə görüşü erməni diaspor nümayəndələrinin kəskin tənqidinə səbəb olmuşdur. Ümumiyyətlə, Azərbaycan, Rusiya və Ermənistan nümayəndələri tərəfindən imzalanmış bu sənəd Ermənistanda kütləvi şəkildə narazılıqların baş verməsinə eyni zamanda dövlətə qarşı kütləvi şəkildə aksiyaların keçirilməsinə səbəb olmuşdur. Ermənistanın məğlubiyyətindən sonra erməni diasporları (nüfuzlu şəxslər) mütəmadi olaraq edilən yardımları dayandırmış və bu istiqamət üçün fəaliyyət göstərən təşkilatlar fəaliyyətlərinə son qoymuşdur, N.Paşinyanın istefa verəcəyi halda bərpa etmək niyyətində olduqlarını söyləmişlər 4 . Rusiyada ermənilər birliyinin (Союз Армян России) sədri Ara Abramyan 8 yanvar tarixində Ermənistanın baş nazirinə açıq məktub ünvanlamışdır. Həmin məktubda A.Abramyan erməni xalqının N.Paşinyanın Moskvaya gəlməsini deyil, istefa verməsini gözlədiyini qeyd etmiş, baş naziri xalqın inamından sui-istifadə etməkdə günahlandırmış, onun heç bir sənəd imzalamağa səlahiyyətli olmadığını bildirmişdir. Eyni tarixdə sözügedən təşkilata məxsus binada Rusiyada erməni təşkilatlarının nümayəndələri görüş keçirmiş, pandemiya şəraitində

etiraz aksiyasının keçirilməsi deyil, 11 yanvar 12:00-14:00 saatlarında Rusiyada Ermənistan Respublikasının səfirliyi qarşısında təşkilat nümayəndələri tərəfindən hazırlanmış xüsusi ərizəni imzalamaq vasitəsi ilə öz münasibətlərini bildirməyə çağırmışlar. Ərizənin mətninə əsasən, diaspor nümayəndələri böhranın dərinləşməsinin qarşısını almaq məqsədi ilə N.Paşinyanı istefa verməyə, Azərbaycan tərəfi ilə "bütün şifahi və yazılı razılaşmaların" məzmununu açıqlamağa, gələcəkdə heç bir sənədə tərəflər arasında razılığa gəlməməyə, müharibənin dayandırılması haqqında imzalanmış kapitulyasının həyata keçirilməsinin və nəticələrinin icrasına son qoyulmasına çağırmışlar.

Erməni Milli Konqresi Xarici İşlər nazirinə qarşı da ittihamlar irəli sürmüşdü. Fevral ayında Milli Assambleyada hökumət nümayəndələri ilə keçirilən sual-cavab görüşündə yeni təyin olunmuş Xarici İşlər naziri Ara Ayvazyan Ermənistan – Azərbaycan münaqişəsinin həlli nəticəsində Türkiyə ilə Ermənistan arasındakı sərhədin açılmalı olduğunu vurğuladı. Xarici İşlər nazirinin bu açıqlaması erməni diasporunun kəskin reaksiyasına səbəb oldu. Erməni Milli Konqresi bəyanat yayaraq hökuməti Türkiyə və Azərbaycanla əlaqələr qurmaqda və Azərbaycanı Qarabağ bölgəsində yaşayan ermənilərin yaratdığı keçmiş rejimin təhlükəsizliyinə zəmanət verməkdən imtina etməkdə günahlandırdı. Bundan əlavə, erməni diaspor nümayəndələrinin fikrincə, Ermənistan hökuməti Türkiyə ilə əməkdaşlıq qurmaq üçün Ermənistan – Azərbaycan münaqişəsindən başqa heç bir maneə görmür və bununla da onlar dolayı yolla "erməni soyqırımı" məsələsinə işarə etdilər. Bu bəyanat diaspor nümayəndələrinin nəinki bölgədə sülh qurmağa meylli olmadıqlarını, hətta bunun əleyhinə fəal şəkildə çalışdıqlarını sübut edir.

44 günlük müharibədə Ermənistanın ağır məğlubiyyəti, daha doğrusu Ermənistanın təslim olması mənasını verən üçtərəfli bəyanatın imzalanması hökumətlə diaspor arasındakı münasibətlərə təsir etdi. Bəzi diaspor üzvləri məğlubiyyətdə Paşinyanı və onun populist xarici siyasətini günahlandırarkən, digərləri indiki vəziyyətə

görə Ermənistanın keçmiş korrupsiyalaşmış siyasi rəhbərliyini ittiham etdi. Azərbaycan və Türkiyə ilə regional kommunikasiya və nəqliyyat əlaqələrinin açılması perspektivi diaspor tərəfindən ədavətlə qarşılandı. Onu da qeyd etmək lazımdır ki, erməni diasporunun nümayəndələri müharibənin nəticələrindən dərs almadılar, bölgədə sülhün bərqərar olmasına və nəqliyyat dəhlizlərinin açılmasına fəal şəkildə mane olmağa davam etdilər.

Baş Nazirə ünvanlanan bütün ittihamların əsas səbəbi diasporun hökumətin Azərbaycan və Türkiyə ilə diplomatik əlaqələr qurmasından qorxmasıdır. Erməni Komitəsinin açıqlamasından bəlli oldu ki, diaspor nümayəndələri hökumətin Türkiyə və ya Azərbaycanla sərhədlərin açılması istiqamətində atdığı hər bir addımı itki kimi qəbul edirlər. Seçkilər zamanı Robert Köçəryanın rəhbərlik etdiyi "Ermənistan bloku"na dəstək verməklə diaspor təşkilatları bölgədə sülhə nail olmaq istəmədiklərini nümayiş etdirdilər. Seçkilərin nəticələri əslində Ermənistan vətəndaşlarının sülh və əmin-amanlıq şəraitində yaşamaq istəyindən xəbər verir və qisas ideyasının ölkə daxilində o qədər də populyar olmadığını göstərir. Diaspor nümayəndələri əksinə, özlərini müstəqil siyasi ünsür hesab etdikləri üçün qisas tələb etməyə davam edəcəklər. Qeyd etmək lazımdır ki, erməni diasporunun bu cür mövqeyi regionda sülhün bərqərar edilməsinə maneələr yaratmaqla bərabər mənfi nəticələrə gətirib çıxara bilər. Nüfuzlu erməni lobbisinin məskunlaşdığı bəzi ölkələrin 44 günlük müharibə zamanı Ermənistana dəstəklərini açıq şəkildə bəyan etməməsi və bununla da diasporun gözlənildiyi qədər təsir gücünə malik olmamasının sübutu daha böyük narazılığa səbəb oldu, lakin bu, açıq şəkildə ifadə edilmədi.

İkinci Qarabağ müharibəsində Ermənistanın ağır məğlubiyyəti və faktiki olaraq kapitulyasiya xarakteri daşıyan üçtərəfli bəyanatın imzalaması dünyanın müxtəlif ölkələrində yaşayan erməni diasporunun fəaliyyətinə təsir etmişdir.Azərbaycan və Ermənistan arasında baş verən müharibə nəticəsində Ermənistanın uduzması ölkə daxilində çaxnaşmalara və ölkə diasporunun zəifləməsinə şərait yaratmışdır. Bu

məğlubiyyət ölkə liderləri arasında fikir ayrılıqlarının yaranmasına və erməni lobbisinin də fəaliyyətinin zəifləməsinə səbəb olmuşdur.Qondarma “erməni soyqırımı” məsələsi həll olunmadan regional kommunikasiya və nəqliyyat xətlərinin, xüsusən Türkiyə ilə sərhədlərin yaxın zamanda açılması perspektivi diaspor nümayəndələri arasında daha kəskin fikir ayrılıqları və parçalanma yaratmışdır. Öz növbəsində 44 günlük müharibə dövründə diasporun güclü olduğu bəzi ölkələrdə Ermənistana açıq dəstək ifadə edən bəyanatların verilməməsi, diasporun heç də zənn edildiyi qədər təsir imkanlarına malik olmamasının üzə çıxması gizli formada da olsa Ermənistan hakimiyyətini narazı salan məqam olmuşdur. Beləliklə, İkinci Qarabağ müharibəsindəki məğlubiyyət Ermənistan hakimiyyəti və diaspor arasında ziddiyyətləri ortaya çıxartmışdır. Yaranmış narazılıqların yaxın gələcəkdə diaspor nümayəndələrinin Ermənistana göstərdikləri yardım və dəstək fəaliyyətlərində də öz əksini tapacağı ehtimal edilir.

# NƏTİCƏ

XX əsrin əvvəllərindən ta bu günə qədər xüsusilə intensiv şəkildə davam edən xalqların tarixi inkişafının səviyyəsi, və istiqamətləri ilə sıx bağlı olan mühacirət prosesinin özünün say demoqrafik və kəmiyyət göstəriciləri baxımından həqiqətən də böyük diaspora malik olan Azərbaycan Respublikası, Azərbaycan diasporu və ümumilikdə diaspor anlayışı hansı baxış sistemi əsasında aydmlaşdırılmasmda çətinlik yaratmış və bu barədə məlumatsızlıq üstünlük təşkil edir. Diaspor icmaları, onların problem və çətinlikləri, sayı, tərkibi, müsbət və mənfi cəhətləri, üstünlük və çatışmazlıqları, diaspor-dövlət münasibətdəki mövqeləri, fəaliyyət və təşəbbüsləri, ictimai-siyasi baxışları və s. ən vacib və xüsusi rol oynayan məlumatlar haqqında informasiya vermək xüsusiyyətindən təcrid olunmuş formada özünü büruzə verməkdədir. Diasporun öyrənilməyə başlanılması dünya dövlətlərinin öz diasporları ilə bağlı gördüyü işlər diaspor vasitəsi ilə iri dövlətlərin siyasi kursunu dəyişməklə dövlətin xarici siyasət sahəsindəki görmədiyi işi diaspor vasitəsi ilə həyata keçirilməsi təcrübəsindən bizdədə öyrənilməyə başlanması, diaspora doğru dövlət tərəfindən atılacaq bütün addımlar dövlət diaspor münasibətlərini normalaşdıra bilər. Bu gün nəhəng bir diaspora malik olan Azərbaycan Respublikası bu günə qədər müəyyənləşdirə bilməyib ki, xaricdə diasporumuzu formallaşdıran həmvətənlərimizdən nə tələb edir və onlara nə təklif edə bilər.

Bu sistem özündə vahid şəkildə vahid ictimai birlikləri və eyni zamanda dünyagörüşünü birləşdirən institutlaşmış funksional tərkib kimi qəbul edir. Hər bir dövlət qarşısında diasporu etnomədəli fenomen kimi saxlanılmasını məqsədi qoyaraq siyasi funksiya kimi də ondan istifadə etməklə diasporun tarixi vətənləri ilə əlaqələrinin möhkəmləndirilməsi strategiyasının formalaşdırır. Dövlət mütləq diaspor ilə işləməlidir, baxmayaraq ki, rəsmi surətdə proqram və konsepsiya yoxdur. Ermənistan, İsrail, Çin və bir çox dövlətlərin ABŞ-ın dövlət səviyyəsində xarici siyasətinə təsir etmək qüvvəsi yoxdur, ancaq qeyri-rəsmi olaraq diaspor vasitəsi ilə buna təsir edə bilər və edir. Hər bir

ölkə diaspor fəaliyyətinin idarə olunmasında özündə iki əsas siyasi xətti birləşdirir 1) Elə siyasət yeridə bilərki bu siyasət nəticəsində diaspordan əsər-əlamət qalmaz. Buradakı ruslar tam assimilyasiyaya məruz qalmış və bunun qarşısını Rusiya ala bilməmişdir. 2) Diaspor anlayışını ümumiləşdirilmiş bir məfhum kimi nıəlız mahiyyətini, problematik tərəflərini, daha çox məhz tarixilik prinsipləri nöqteyi-nəzərindən izah edərək diaspordan etimoloji yanaşma üsulu vasitəsi ilə istifadə edə bilər.

Azərbaycanın üzləşdiyi böyük problemlərin beynəlxalq səviyyədə həll olunması və dünyanın bir çox dövlətləri, xüsusi ilə ABŞ-la sıx əməkdaşlıq və perspektivdə müttəfiqlik münasibətlərinin qurulması yolunda kifayət qədər nəhəng bir qüvvə olan diasporumuzdan yüksək səviyyədə istifadə edilərək onun Azərbaycan dövləti faktoruna doğru yönəldilməsi vacibdir. Vətən müharibəsi dövründə Azərbaycan Diasporunun fəaliyyətini də nəzərdən keçirdikdə bizə məlum olur ki, müasir günümüzdə çox böyük inkişaf yolu keçmişdir və öz qələbəsini bütün sferalarda yaşamışdır.

# İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI


1. Ağamirov, N. Avropa azərbaycanlıları Frankfurtda toplaşıb//Kaspi. - 2009, 15 aprel. №.64, - s, 5.
2. Ağayev, İ.Müasir tarixdə lobbi amili // Palitra. - 2009, 22 dekabr. №.139, - s.9.
3. Ağayev, İ.Müasir tarixdə lobbi amili // Palitra.- 2009, 23 dekabr. № 140, - s.9.
4. Allahverdiyev , V. Lobbiçilik daha effektiv vasitədir // Azad Azərbaycan. - 2019, 21 sentyabr. №114, - s.5.
5. Avropa azərbaycanlıları Frankfurtda toplaşıb // Kaspi, - 2009, 5 aprel. №.64, - s. 5.
6. Azərbaycan diasporunun lobbiçilik fəaliyyətinə keçməsinin zamanı yetişib / Paralel.- 2015, 1 oktyabr. № 174, - s.10.
7. Azərbaycan diasporunun lobbiçilik fəaliyyətinə keçməsinin zamanı yetişib / Paralel. - 2015, 24 sentyabr. № 171, - s.7.
8. Azərbaycan dövləti bütün dünyada yaşayan azərbaycanlıların siyasi istinadgahı kimi çıxış edir / Paralel. - 2015, 14 iyul. № 123, - s.7.
9. Azərbaycan Prezidenti Heydər Əliyevin Brüsseldə yaşayan soydaşlarımızla görüşdə çıxışı: - Brüssel, 17 aprel -1995. //Azərbaycan qəzeti. - 1995, 20 aprel.
10. Azərbaycan Respublikasının Konstitusiyası. - Bakı: Qanun, - 2008, - 128 s.
11. «Azadlıq» qəzeti - 25-27 dekabr 1999
12. Bünyadzadə, G. Avropa Azərbaycanlıları Konqresinin strukturunda dəyişiklik edilib // Paritet.- 2009, 16-17 aprel. №.39, - s.1, 4.
13. Dünya Azərbaycanlılarının Həmrəylik Xartiyasının son variantı tezliklə hazır olacaqdır / Xalq qəzeti. - 2009, 5 fevral. № 27, - s.1.
14. «Dirçəliş XXI əsr» jurnalı 8-9 1999
15. Əhmədov, E. Xocalı soyqırımının beynəlxalq aləmdə tanınması //Xalq qəzeti.- 2014.- 27 fevral.- s. 4.
16. Əliyev, V. Bizə "Lobbi haqqında Qanun" lazımdır //-Bakı: Dirçəliş XXI əsr,- 2006. №...s.

17. Əliyev, V. ABŞ xarici siyasətində lobbi fəaliyyəti //-Bakı:Dirçəliş XXI əsr,-2006. №98-99, -s.226-228.
18. Əliyev Z. Beynəlxalq münasibətlərdə diasporların rolu- Bakı- 2001 – 150 s.
19. Əsgər Abdullayev «Erməni terrorizmi və cinayətləri: Azərbaycanda, Türkiyədə və Dünyada». Bakı 1994
20. İbadov, R. Avropa İttifaqının Əsasları. - Bakı: Rza İbadov, - 2004. - 212 s.
21. İsmayılbəyli, S. Diaspor quruculuğu, lobbiçilik və dünya azərbaycanlılarının həmrəyliyi // Olaylar. - 2015, 30 iyun. № 114, - s.13.
22. İsmayılov, F. Qarabağ konflikti ABŞ-ın qlobal siyasəti kontekstində. - Bakı: Azərbaycan Milli Ensiklopediyası nəşriyyatı, - 2001. - 152 s.
23. Qasımov, M. Azərbaycanın xarici siyasəti (konsepsiya məsələləri). - Bakı: Mütərcim, - 1997. - 124 s.
24. Quliyev, S. Bağımsızlıktan sonra Azerbaycan-ABD ilişkileri. - Ankara: Bakanlar Matbaacılık, - 2004. - 233 s.
25. Nəsirov, E. Azərbaycan-ABŞ münasibətləri (1991-1997-ci illər). - Bakı: Qanun, - 1998. - 136 s.
26. Patzer-İsmailova ,S. Diaspor fəaliyyətində konkret İKT strategiyası yaradılmalıdır. //Xalq qəzeti.-2016.-20 iyul.-№154, -s.3.
27. Rəis, X. Dünya azərbaycanlıları Vətən naminə birləşir // Kaspi. - 2019, 13 mart. № 48, - s.12.
28. Şıxəliyev, E. A. Erməni iddialarının siyasi mahiyyəti. - Bakı: Nurlan, - 2006. -187 s.
29. Şıxəliyev, E.A. Geosiyasi maraqların toqquşması kontekstində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi. - Naxçıvan: "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi, - 2018. - 384 s.
30. Saleh bəy «Dünyanın taleyi». Bakı 1998

**İngilis dilində:**

31. Journal «The chronicle of higher education», New-York, 22 January, 1999

32. Justin Me. Carthy, Carolin Me. Carthy «Turks and Armenians: a manual on the Armenian question» WashingtonDc. 1998
33.«Armenian allocations -myth and reality» Washington 1982
34. Journal «Azerbaijan in the international multilateral intercommunicaton's», 22-23 November. Baku, 1995
35.Christopher J. Dcrriııg « Congressional politics» New-York 1996

**Rus dilində :**

36. Салех бей «Армянство», Баку, 1994
37.Сабир Асадов «Миф о Великой Армении», Баку, 1999
38.Кямрун Гюрюн «Армянское досье», Баку, 1993
39. Журналь «Возрождение-XXI век» №3 Баку 1999
40. Ближний Восток и Международное право». Москва, 1992
41. И.О.Геевский С.А.Червонная «Национальный вопрос в общественно-политической жизни США», Москва. 1985
42. «Международный сионизм па службе империалистической реакций». Москва, 1984